Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

22
NOYABR
2019-cu il
№ 208 (4106)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYAN AVROPADA AZƏRBAYCANI TERRORLA HƏDƏLƏDİ - MÜHARİBƏ QORXUSUNUN YENİ EYFORİK TƏZAHÜRÜ...

■ səh. 5 ■

Birinci vitse-prezident Mehriban Əliyevanın Moskvaya ilk rəsmi səfəri - maraqlı fakta ekspert rəyləri... ■ səh. 3 ■

MDB məkanı üçün vahid təhlükəsizlik platformasında Azərbaycanın yeni rolu - Ramil Usubovun Moskva səfəri... ■ səh. 3 ■

Paşinyan pozucu "üçbucaqlı Qarabağ həlli" ideyasından Avropada da əl çəkmədi - Azərbaycan, Ermənistan və "DQR" xalqları... ■ səh. 5 ■

Dünya mediası Ermənistanın işğal siyasətinə qarşı açıq mövqeni gücləndirir... ■ səh. 9 ■

Paşazadənin erməni katolikosu ilə görüşü Qarabağ probleminin həlli prosesinə nə verə bilər... ■ səh. 10 ■

Müsavat Partiyası niyə çalxalanır - prosesin siyasi, şəxsi-emosional və strateji kökləri... ■ səh. 7 ■

Bakı-Tiflis-Qars Rusiyanın məşhur "Transsibir" dəmir yolu ilə birləşdirilir... ■ səh. 12 ■

Bakıdakı məşhur marketlərdə 5 manata ət - AQTA-nın üzə çıxardığı möcüzə bazar mütəxəssislərini şoka salıb... ■ səh. 13 ■



## Ermənistanda yəhudi icması? - ermənilərin yəhudi milli hissləri ilə oynamasına dünya yəhudiləri dözəcəkmi...

■ səh. 7 ■





Milli Məclisə seçkiləri ertələməyin əsl zamanı deyilmi - kadr dəyişikliklərinə maraq artır, sosial paketlər nəticə verir, radikalların sosial və Qarabağ şüarları fiaskoda... ■ səh. 4 ■

Yaşlı məmurlardan vəzifəni yerə qoyanlar oldu, yaşlı deputatlar, nədənsə, hələ «möhkəm dayanıb» ■ səh. 6 ■

«Paşinyan əsir götürülüb» - Ermənistanda «qurtuluş hərəkatı» başladı... ■ səh. 11 ■

■ səh. 8 ■

Qanunsuz mühacir ticarəti ilə məşğul olanların cinayəti Azərbaycanda da araşdırılacaq



■ səh. 6 ■

ABŞ səfiri Azərbaycan hökuməti ilə iqtisadi islahatlar məsələsində nəyi müzakirə edəcək...



■ səh. 4 ■

Azərbaycan terrorla mübarizə vəziyyətinə görə dünyada öz yerini beş pillə də yaxşılaşdırdı...



■ səh. 13 ■

Restoran toy yeməklərindən kütləvi imtinalar başlayır - lülə, salatlar tam, tikələr əsasən toxunulmaz qalır...



■ səh. 15 ■

Yeni çəkilmiş Azərbaycan filmləri telekanallarda niyə yayımlanmır?






# Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib

*Prezident öz fondundan Sumqayıtda müxtəlif layihələr üçün milyonlarla manat vəsait ayırdı*

**Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib və geniş nitq söyləyib.**

Sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, "Şöhrət" ordenli Əməkdar müəllim Ofeliya Babayeva, "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov, 1 nömrəli poliklinikanın baş həkimi Arzu Bəndəliyeva, Əməkdar inşaatçı Maqsud Maqsudov, Sumqayıt Dövlət Dram Teatrının aktyoru Cəlal Məmmədov çıxış edib.

Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıtda "Nizami" kinoteatrının yeni binasının açılışında iştirak edib, Sumqayıtda Muğam Mərkəzinin açılışında iştirak edib və Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında da sərəncam imzalayıb və Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə 6 milyon manat ayırıb.

Prezident İlham Əliyev Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında da sərəncam imzalayıb və şəhər stadionunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Sumqayıt Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5 milyon manat ayırıb.

Prezident İlham Əliyev Sumqayıt şəhərində yeni "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayaraq, Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayırıb.

*Xəbər Xidməti*

## Mühacir alverçisinin daha bir cinayəti...

**Müsavat Avropa Koordinsiya Mərkəzi (AKM) "mühacir alveri" barədə ittihamlara guya cavab verib, əslində isə bu cavabla qəbahətlərinin daha böyük olduğunu etiraf edib. Belə ki, AKM bu gün cəmiyyətdəki fikirləri mühacir alverindən yayındırmaq və özlərini təmizə çıxarmaq məqsədi daşıyan bir bəyanat verib.**

Təşkilatın bəyanatında deyilir: "Müsavat AKM olaraq araşdırmalardan sonra bizə məlum olan budur ki, Mehdi Xəlilbəyli haqqında hələlik sübut olunan fakt yük daşınmalarından gələn gəlirləri gizlətmək və vergidən yayınmaqdır. Bu hallar isə bütün Avropada çox böyük cinayət hesab olunur və ağır cəzası var".

Bu yanaşmadan tam aydın olur ki, Müsavat AKM məsuliyyəti üzərindən atmağa çalışır. Hətta "Bu hallar Avropada çox böyük cinayət hesab olunur və ağır cəzası var" deməklə Avropaya, onun qanunvericiliyinə yaltaqlanırlar. Sanki gələn gəliri gizlətmək, vergidən yayınmaq halları digər ölkələrdə xoşhallıqla qarşılanır.

O boyda Almaniyanın hüquq mühafizə orqanları bu adamlar barədə "mühacir alveri" ittihamı ilə rəsmi cinayət işi açır, məhkəmə qərar çıxarır, bunlar isə hələ də öz çaldıqları havaya oynamaq istəyirlər. Hər halda utanmırlar. Atalar elə bunlar üçün deyib də - "utanmasan, oynamağa nə var ki...

Bu yerdə xatırladaq ki, Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın Müsavat partiyasının üzvlərini saxlayıb. Cnayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi Elçin Əkbərov, Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (Müsavat AKM) sədri, Kəlbəcər rayonunun sabiq icra başçısı İlham Həsən, Müsavat partiyasının üzvü, Müsavat AKM sədrinin müavini Mehdi Xəlilbəyli, Müsavat AKM-in üzvü Abdin Cavadov, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı, "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi Ələvsət Əliyev, Mehdi Xəlilbəylinin sürücüsü Rəşad Məmmədov, Müsavat Partiyasının üzvü Elşən Abdullayevdir.

Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda , o cümlədən 3-10 min avro arası ödəmə qarşılığında ən azı 20 nəfəri qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinir.

# Bəzi müxalifətçilərin xaricdə belə cinayətlərlə məşğul olduqlarını bilirdik...

***Əli Həsənov:*** *"Qanunsuz miqrasiya cinayətinə əli bulaşan insanlar layiqli cəzalarını alacaqlar"*



**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov müxalifətin "miqrant alveri" və Almaniyadan bir sıra azərbaycanlının deportasiya olunması məsələsinə münasibət bildirib.**

"Trend"in məlumatına görə, Ə.Həsənov bildirib ki, biz Qərbin liberal həyat tərzini, məsələlərə liberal yanaşmasını anlayırıq. Amma öz ölkəsində həm ictimai-siyasi, həm də iqtisadi sahədə ciddi nümunələr göstərə, özünü tapa bilməyən, ayrı-ayrı səbəblərdən öz ölkəsini tərk edib xaricə gedənlərin yerləşdirilməsi sahəsində formalaşan bu biabırçılığı pisləyirik: "Çoxdan bilirdik ki, bəzi müxalif partiyalar, o cümlədən onların müxtəlif nümayəndələri bu işlə məşğuldur. Biz bunu dəfələrlə bəyan edirdik və sübut etməyə çalışırdıq. Ancaq təəssüflər olsun ki, müxalifət partiyaları bunu etiraf etmirdi ki, nəyə görə bu insanları başqa adlarla, uydurma arayışlar hazırlamaqla xarici ölkələrə göndərirdilər. Onların orada yaşadığı həyat tərzini, qaçqın kamplarında yaradılan şəraiti də bilirdik. Azərbaycan dövlətinin dəyərli vətəndaşı olmaq hissi onlar üçün yaradılmış komfort şəraitlə əvəz oluna bilməzdi. Ona görə də biz əvvəlcədən bunun əleyhinə idik. Azərbaycan dövləti geri qayıdanların yerləşdirilməsi, onların işlə təmin olunması, yenidən ölkəmizin layiqli vətəndaşına çevrilməsi üçün əlindən gələn hər bir şeyi edir və bundan sonra da edəcək. Düşünürəm ki, bu yola düşənlər, xüsusən də Azərbaycan vətəndaşlarının xarici ölkələrə saxta yollarla aparılmasında iştirak edən insanlar da özlərinin layiqli cəzasını alacaqlar. Bundan sonra Azərbaycan vətəndaşları dövlətçilik ətrafında sıx birləşəcəklər".

Ə.Həsənov, həmçinin, deportasiya olunan azərbaycanlıların ölkəyə qaytarılmasından sonra müxtəlif bəhanələrlə həbs ediləcəyi barədə yayılan məlumatlara da münasibət bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, bunların heç bir əsası yoxdur: "Əlbəttə, onların hər birinin fəaliyyəti Azərbaycanda araşdırılır və araşdırılacaq. Biz Azərbaycan vətəndaşlarının hər biri üçün bu ölkədə yaşayış, iş, fəaliyyət şəraiti yaratmağa borcluyuq. Azərbaycan dövlətinin və Prezidentinin yürütdüyü siyasətin təməlində insan və vətəndaş amili, onların maraqları dayanır. Ona görə də Azərbaycana qaytarılan o insanların hər birinin ölkəmizin vətəndaşı olaraq gələcək həyatını qurması üçün lazım olan şərait yaradılacaq və onlara lazımi dəstək veriləcək.

Cinayət törətmiş qrup və ya insanlara gəlincə, onlarla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır. Nəinki bizim, o cümlədən Almaniya, Fransanın da hüquq-mühafizə orqanları araşdırma aparır. Bu işdə cinayətə əli bulaşan insanlar da layiqli cəzalarını alacaqlar".

## BDU-nun yataqxanasında tələbə qızın zəhərlənmədən vəfat etməsi ilə bağlı cinayət işi açıldı...

**Bakı Şəhər Prokurorluğunun məlumatına görə, noyabrın 21-də Bakı Dövlət Universietinin 2 saylı yataqxanasında universitetin tələbələri - 1999-cu il təvəllüdlü Xasmətova Şəkər Faiq qızının qidadan zəhərlənərək vəfat etməsi, 1998-ci il təvəllüdlü Quliyeva Dilrubə Qismət qızı və İbadova Həmidə Bünyamiddinovnanın zəhərlənərək Kliniki Tibbi Mərkəzə yerləşdirilməsi faktı ilə bağlı daxil olmuş məlumat əsasında dərhal polis, prokurorluq, Qida Təhlükəsizlik Agentliyinin əməkdaşlarının və məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə baxış keçirilib, qida nümunələri götürülərək laborator müayinəsinə göndərilib.** Fakta görə Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Tələbələrin zəhərlənmə səbəblərinin və digər halların müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilib. Hadisə zamanı zəhərlənmə diaqnozu ilə Kliniki Tibbi Mərkəzə daxil olmuş Həmidə İbadova və Dürrübə Quliyevanın müalicəsi Səhiyyə Nazirliyinin rəhbərliyi tərəfindən nəzarətə götürülüb, stasionar şəraitdə müalicələri davam etdirilir.

Hazırda iş üzrə Qida Təhlükəsizlik Agentliyinin mütəxəssisləri cəlb edilməklə təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Moskvaya ilk rəsmi səfəri - maraqlı fakta ekspert rəyləri...

**Nəzakət Məmmədova:** *"Azərbaycan Respublikasının ikinci ali vəzifəli şəxsi növbəti rəsmi səfərini də, eynilə Heydər Əliyev kimi, Rusiyaya etdi"*

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 20-də Rusiyaya rəsmi səfərə gedib. Moskvanın "Vnukovo 2" Beynəlxalq Hava Limanında Mehriban Əliyevanı Rusiyanın Xarici işlər nazirinin müavini Aleksandr Pankin, bu ölkənin Azərbaycandakı səfiri Mixail Boçarnikov, Rusiya Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəisi İqor Boqdaşev və Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qarşılayıblar.**

Rusiyada rəsmi səfərdə olan Birinci vitse-prezident Mehriban Əliyeva noyabrın 21-də Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət edib.

Moskva şəhərinin hərbi komendantı Yevgeni Seleznyov Azərbaycanın Birinci vitse-prezidentinə raport verib. Mehriban Əliyeva naməlum əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səsləndirilib. Sonra fəxri qarovul dəstəsinin keçidi olub.

Qeyd edək ki, bu, Mehriban Əliyevanın Rusiyaya Birinci vitse-prezident kimi etdiyi ilk rəsmi səfərdir. Edilən ilk rəsmi səfərlə bağlı nə kimi təəssüratlar söyləmək olar?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə bildirdi ki, Mehriban Əliyeva Heydər Əliyev siyasətinə sadiqdir və onun yolu ilə gedir: "Xatırlayaq ki, Heydər Əliyev də ilk rəsmi səfərini o zaman Fransaya etmişdi. Mehriban Əliyeva da bu ilin mart ayında Birinci vitse-prezident statusundakı ilk xarici səfərini Fransa Respublikasına etdi. Azərbaycan Respublikasının ikinci ali vəzifəli şəxsi növbəti rəsmi səfərini də, eynilə Heydər Əliyev kimi, Rusiyaya etdi. Təbii ki, xanım Əliyevanın Moskvaya rəsmi səfəri maraqla qarşılanır. Əlalxüsus, onun Rusiya Baş naziri Dmitri Medvedyevlə ikitərəfli rəsmi görüşü, habelə onuncu Rusiya-Azərbaycan regionlararası forumda iştirakı diqqət mərkəzindədir. Habelə Rusiya və Azərbaycanın iki yüksək vəzifəli şəxsi - Matvienko və Əliyevanın forumun plenar iclasının açılışında iştirakı da vacib məqamdır.

Forumu Rusiya və Azərbaycanın İqtisadiyyat nazirlikləri Roskonqres fondunun dəstəyilə təşkil ediblər. Bu, yəqin ki, yeni İqtisadiyyat naziri Cabbarov üçün də məsuliyyətli bir sınaqdır.



Elə forumun açılışında Rusiya Federasiyasının İqtisadi inkişaf naziri Oreşkin və Azərbaycanın İqtisadiyyat naziri Cabbarovun çıxış edəcəyi gözlənir.

Moskvadakı məşhur Kutuzov prospektindəki "Redisson kolleksn" oteldə keçiriləcək tədbirə sədrliyi Valentina Matvienko və Mehriban Əliyeva edəcəklər. Nəqliyyat infrastrukturu, turizm, kənd təsərrüfatı və humanitar sferalarda regionlararası əməkdaşlığa dair dörd "dəyirmi masa"nın keçirilməsi nəzərdə tutulub. Mehriban Əliyevanın bu səfərinin də səmərəli olacağını gözləmək olar".

***Məhəmmədəli QƏRİBLİ***

# MDB məkanı üçün vahid təhlükəsizlik platformasında Azərbaycanın yeni rolu - Ramil Usubovun Moskva səfəri...

**Arzu Nağıyev:** *"Rusiya bilir ki, ABŞ və ya Qərb bu amildən məharətlə istifadə edə bilər"*

**Noyabrın 20-də Moskvada MDB ölkələri təhlükəsizlik şuraları katiblərinin iclası keçirilib. Azərbaycan Təhlükəsizlik Şurasının katibi Ramil Usubov iclasda iştirak edib. İclas iştirakçıları MDB məkanında regional təhlükəsizliyin təmin olunması, təhlükəsizlik şuraları xətti ilə beynəlxalq əməkdaşlıq, qlobal təhlükəsizlik və strateji sabitliyə dair mövzuları və ABŞ-ın suveren dövlətlərin daxili işlərinə qarışmasını müzakirə ediblər.**



Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev iclasın açılışında çıxış edərək bildirib ki, iştirakçılar MDB məkanında təhlükəsizliyin təmin olunması məqsədilə mövcud problemlərin həllinə birgə yanaşmaları işləyib hazırlayacaqlar.

Rusiya KİV-nin verdiyi məlumata görə, artıq Ramil Usubovla Nikolay Patruşev arasında 2020-2021-ci illər üçün birgə əməkdaşlıq planı haqda saziş imzalanıb. Bildirilir ki, bundan əvvəl Usubovla Patruşev arasında Bakıda görüş olub və həmin vaxt təhlükəsizliklə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Patruşev öz çıxışında bildirib ki, Azərbaycanla əməkdaşlığın genişlənməsinə böyük önəm verir. Göründüyü kimi, MDB məkanı üçün vahid təhlükəsizlik platformasının hazırlanacağına dair anons verilib. Bu platformada Azərbaycanın yeni rolu nədən ibarət ola bilər?

Təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dünyada və regionda baş verən vacib proseslərin fonunda belə bir tədbirin keçirilməsi çox təqdirəlayiqdir: "MDB təhlükəsizlik şurası katiblərinin məhz belə bir həssas məqamda bir araya gəlməsi və müəyyən qərarlar qəbul etməsi müsbət dəyərləndirilməlidir. Azərbaycan da MDB məkanına daxil olan bir dövlətdir. Bizim Rusiya və bir sıra MDB ölkələri ilə su və quru vasitəsilə sərhədlərimiz var. Təhlükəsizliklə bağlı təhdidlərin qarşısını almaq üçün koordinasiyalı şəkildə müəyyən addımların atılması zəruridir. Lakin bu o demək deyil ki, vahid sistemin yaradılmasında Azərbaycan Rusiyadan daha çox maraqlıdır. Rusiya öz sərhədləri boyunca bir bufer zona yaratmağa çalışır ki, baş verə biləcək hər hansı təhdidin qarşısının ilkin alınmasında onun tərəfdaşları da yaxından iştirak etsinlər. Azərbaycanı da bu rolda görürlər. Ölkəmizin şimal sərhədləri ilə Rusiyanın cənub sərhədinə düşən ərazisi o qədər də sakit zona kimi xarakterizə edilmir. Həmin coğrafiyada baş verə biləcək hər hansı bir insident, xüsusilə də Dağıstan istiqamətində terrorçuların hərəkətə gəlməsinin qarşısının alınmasında Rusiya Azərbaycanın roluna güvənir. Burada əsasən söhbət kəşfiyyat məlumatlarının mübadiləsindən gedir. Ancaq yaradılması barədə söhbət gedən vahid sistemdə müəyyən anlaşılmazlıqlar da yaşana bilər. Bilirsiniz ki, MDB ölkələrindən biri digərinin ərazisini işğal edib. Nə qədər ki, Ermənistan işğaldan əl çəkməyib, bizimlə İrəvan arasında birgə sistemin olması mümkün deyil. Yeni bu sistem bütün MDB ölkələri arasında işləyə bilməz. Düşünürəm ki, burada Rusiya daha çox öz maraqlarını güdür. Bundan əvvəl Rusiyanın xüsusi xidmət orqanlarının rəhbərləri Orta Asiya regionunda vəziyyətin gərginləşə biləcəyi ilə bağlı proqnozlar verirdilər. Həmin ölkələrdə müəyyən dini radikal qrupların fəallığı nəzərə çarpır. Rusiya bilir ki, ABŞ və ya Qərb bu amildən məharətlə istifadə edə bilər. Bu səbəbdən də əsas diqqət o istiqamətə yönəlməlidir".

## *"Azərbaycan özünü müdafiə etməyə qadir olan ölkədir"*

Ekspertin sözlərinə görə, Azərbaycan özünü müdafiə etməyə qadir olan ölkədir: "Türkdilli ölkələrin xüsusi xidmət orqanlarının burada keçirdikləri görüşdə məlum oldu ki, Azərbaycan müttəfiq ölkələrlə ikitərəfli qaydada, koordinasiyalı şəkildə məlumat mübadiləsini aparır. Vahid sistemin yaradılmasında başlıca maraqlı olan ölkə Rusiyadır. Çünki nəhəng ölkə kimi ona edilən təhdidlərin həcmi də böyükdür. Buna görə də Rusiya hətta NATO üzvü olan Türkiyə ilə də tərəfdaşlıq edir. Hesab edirəm ki, MDB məkanındakı dövlətlərin arasında ikitərəfli əməkdaşlığın perspektivi vahid sistemin yaradılmasından daha çoxdur. Rusiya ilə bu sahədə məlumat mübadiləsi aparmağımızın da bizə yalnız xeyri var. Vahid sistemin yaradılmasında da inanıram ki, Azərbaycan öz iqtisadi, milli və hərbi maraqlarını önə çəkib, yekun rəyini ortaya qoyacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Milli Məclisə seçkiləri ertələməyin əsl zamanı deyilmi - kadr dəyişikliklərinə maraq artır, sosial paketlər nəticə verir, radikalların sosial və Qarabağ şüarları fiaskoda...

**Son vaxtlar ölkədə aparılan islahatlar bir sıra reallıqları üzə çıxarıb. Görünən budur ki, aparılan islahatlardan bəhrə görən xalq bunun hakimiyyətin bütün qollarında tətbiqinin tərəfdarıdır. Bu tendensiya sosial şəbəkələrdə ifadə olunan fikirlərdə, əhali ilə olan söhbətlərdə özünü göstərir.**

*"...nəticədə biz daha çox gənclərdən ibarət yeni bir parlamenti formalaşdıra bilərik"*

## **Qabil Hüseynli:** *"Hazırda gedən islahatların fonunda bunun yaxşı rezonansı da olar"*



Əhalinin böyük hissəsi sosial paketlərdən yararlanmağı bacardı, təqaüd və əməkhaqlarında real artım qeydə alındı. Bunlarla paralel şəkildə struktur və kadr islahatları həyata keçirildi ki, bu da əhali tərəfindən böyük rəğbətlə qarşılandı.

Bunların fonunda alternativ düşərgənin reytinqinin aşağı düşdüyü müşahidə olunur. Söhbət radikal müxalifətdən gedir. Onların keçirməyə cəhd etdikləri etiraz aksiyaları uğursuz alınır. Çıxış yolu kimi sığınmaq istədikləri Qarabağ kartı da onlara dividend gətirmir. Çünki bu problemlə Azərbaycan dövləti dərindən məşğul olur. Radikal müxalifətin bu uğursuzluğu həm də onların sosial baza sarıdan tam tükəndiklərinə bir işarədir. Baş verənlər həm də ölkə başçısının reytinqinin çox yüksək olduğuna bir işarədir. Bütün bunlarla yanaşı, bir vacib sosial tələb də var. Bu da növbədənkənar parlament seçkilərinin keçirilməsidir. Erkən parlament seçkilərinin keçirilməsi üçün əsl zaman deyilmi?

Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, növbədənkənar parlament seçkilərini keçirmək üçün bir sıra şərtlər olmalıdır: "Bunlardan birincisi mühüm dövlət orqanlarının öz funksiyalarını yerinə yetirə bilməməsi, hakimiyyət qolları arasında konfliktin olması və başqa amillər seçkiləri ertələməyə əsas verir. Bizdə belə hallar yaşanmır. Ancaq bunu başqa detallara əsaslanıb keçirmək olar. Məsələn, ölkədə həyata keçirilən sosial, kadr, struktur islahatların tam tamamlanması üçün belə addım atıla bilər. Çünki əhalinin gözünün önündə olan daha çox parlamentdir. Biz hiss edirik ki, sadə vətəndaşlar oradakı tərkibin də yenilənməsini istəyirlər. Düzü, bu ilin əvvəlindən belə fikirlər çox səslənirdi. Hətta məlumatlı adamlar deyirdilər ki, ilin sonunda baş tuta bilər. Mən də düşünürdüm ki, erkən seçkilərin keçirilməsi üçün ən uyğun vaxt bu ilin sonu idi. Yəni bələdiyyə seçkiləri ilə birlikdə bu seçkini keçirmək olardı. İki seçkinin bir yerdə keçirilməsi həm də büdcəyə qənaət olardı. Bilirsiniz ki, parlamentdə bir neçə deputat yeri də boşdur. Onlarla da bağlı seçki keçirilməyib. Bütün bunları ümumiləşdirib, növbədənkənar seçkilərin keçirilməsi yerinə düşərdi. Hazırda gedən islahatların fonunda bunun yaxşı rezonansı da olar. Əminəm ki, dəyişiklik istəyən xalq seçkilərdə çox aktiv iştirak edər və nəticədə biz daha çox gənclərdən ibarət yeni bir parlamenti formalaşdıra bilərik. Ümumi mənzərənin tamamlanması üçün buna zərurət görürəm. Gecikdirmək lazım deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan terrorla mübarizə vəziyyətinə görə dünyada öz yerini beş pillə də yaxşılaşdırdı...

**Azərbaycan terrorizmin səviyyəsi çox aşağı olan ölkələr siyahısında yer alıb. London İqtisadiyyat və Sülh İnstitutunun yaydığı məlumatda qeyd olunur ki, reytinqdə Azərbaycan öncəki hesabatla müqayisədə mövqeyini 5 pillə yaxşılaşdıraraq 103-cü yeri tutub.**

*"Hesab edirəm ki, beynəlxalq hesabatda Azərbaycanın 5 pillə irəliləməsi ölkə əhalisinin mədəni səviyyəsini göstərən bir faktdır"*

## **Elçin Mirzəbəyli:** *"Terrorun bütün istiqamətlərinə qarşı ölkəmiz hər zaman aparıcı mövqedə dayanıb"*



Məlumat üçün bildirək ki, qonşu ölkələrdən Türkiyə 16-cı (terrorizmin yüksək səviyyəsi), Rusiya 37-ci (terrorizmin orta səviyyəsi), İran 39-cu (terrorizmin orta səviyyəsi), Gürcüstan 90-cı (terrorizmin çox aşağı səviyyəsi) sırada yer alıb.

Terrorizm baxımından ən təhlükəli ölkələr Əfqanıstan, İraq, Nigeriya və Suriyadır. 26 ölkə isə terror təhlükəsi olmayanlar qrupuna daxil edilib: Kosta Rika, Sloveniya, Toqo, Mavritaniya, Portuqaliya, Xorvatiya, Salvador, Esvatini, Monqolustan, Rumıniya, Benin, Ekvatorial Qvineya, Kamboca, Botsvana, Namibiya, Kuba, Türkmənistan, Mavriki, Timor-Leste, Sinqapur, Eritreya, Şimali Koreya, Qambiya, Oman, Qvineya-Bisau, Belarus.

Qeyd edək ki, Azərbaycan terrorla mübarizə vəziyyətinə görə regionda və dünyanın ən təhlükəsiz ölkələri siyahısında ön cərgədə yer alır.

Siyasi şərhçi Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan terrora qarşı beynəlxalq miqyasda da mübarizə aparır: "Terrorun bütün istiqamətlərinə qarşı ölkəmiz hər zaman aparıcı mövqedə dayanıb. Ölkə daxilindəki vəziyyətə gəlincə, müvafiq qurumlar təhlükəsizliyin təmin olunması ilə bağlı ciddi addımlar atırlar. Çoxlu sayda tədbir həyata keçirilir. Ayrı-ayrı terror qruplarının tərkibində olan və ya ona cəhd edən insanlar müvafiq qurumlar tərəfindən aşkar edilərək məsuliyyətə cəlb olunublar".

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycanın terrorizm baxımından ən təhlükəsiz ölkə kimi beynəlxalq hesabatlarda ön sırada yer alması reallığı əks etdirir.

**Bu məsələdə dövlətlə yanaşı, Azərbaycan cəmiyyətinin özünün rolu var. Nəzərə almaq lazımdır ki, Azərbaycan cəmiyyəti kifayət qədər sivil və modern düşüncəyə malikdir: "Hesab edirəm ki, beynəlxalq hesabatda Azərbaycanın 5 pillə irəliləməsi ölkə əhalisinin mədəni səviyyəsini göstərən bir faktdır".**

***Günel CƏLİLOVA***

**İtaliyada rəsmi səfərdə olan Ermənistanın Baş naziri Nikol Paşinyan burada da Azərbaycana qarşı təxribatçı fikirlər səsləndirməkdən, münaqişənin sülh yolu ilə həllini tapmamasında ölkəmizi günahlandırmaqdan çəkinməyib.**

# Paşinyan Avropada Azərbaycanı terrorla hədələdi - müharibə qorxusunun yeni eyforik təzahürü...



***Akif Nağı:** ”Azərbaycan sabit bir ölkədir və buranın hər hansı bir terrorçu qruplaşmanın meydanına çevrilməsi qeyri-realdır, mümkünsüzdür”*

Paşinyan deyib ki, Ermənistan münaqişənin həlli üçün sülhü əsas götürür. Azərbaycana qarşı müxtəlif həqiqətə uyğun olmayan fikirlər səsləndirən Paşinyan ölkəmizi terrorla təhdid edib və Azərbaycanın "terror yuvası"na çevriləcəyini "proqnozlaşdırıb". O qeyd edib ki, Azərbaycan bu ritorikanı davam etdirsə, o, terrorçular üçün plasdarma (meydana) çevrilə bilər. "O terrorçulara ki, dünyanın bir sıra başqa ölkələrində mövqelərini itiriblər və öz mövqelərini bərkitmək üçün yeni bir meydan axtarırlar" - deyə Paşinyan söyləyib.

Paşinyanın Azərbaycanı terrorla təhdid etməsinin heç bir əsası olmadığını deyən Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağının sözlərinə görə, Dağlıq Qarabağ probleminin sülh yolu ilə ədalətli həllinə Ermənistan və bu ölkənin siyasi hakimiyyəti mane olur. Azərbaycanın istənilən yolla öz torpaqlarını işğaldan azad edəcəyini deyən A.Nağının sözlərinə görə, Paşinyanı bu cür cəfəng fikirlər səsləndirməyə öz siyasi uğursuzluğu vadar edib. Paşinyanın siyasi yarıtmazlığını ört-basdır etmək üçün bu kimi fikirləri meydana atdığını qeyd edən A.Nağı bildirdi ki, Ermənistan Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. "Paşinyan və onun komandası siyasi cəhətdən tamamilə nüfuzdan düşüblər və erməni xalqı onlara heç bir etimad göstərmir. Paşinyan verdiyi vədin heç birini yerinə yetirmədi. Bu da Ermənistan cəmiyyətinin narazılığına səbəb oldu. Bu gün Paşinyan bütün çıxışlarında Azərbaycanı hədəfə alır, münaqişənin həlli istiqamətində məqsədyönlü işlər görmək əvəzinə, ölkəmizi təhdid edir. Azərbaycan torpaqlarında ən böyük və qanlı terror hadisələrini ermənilər, Ermənistan silahlı qüvvələri törədiblər. Azərbaycanın işğal altında olan torpaqlarını ermənilər terror yuvasına çeviriblər. Paşinyan bundan danışsa daha yaxşı olar. Azərbaycan sabit bir ölkədir və buranın hər hansı bir terrorçu qruplaşmanın meydanına çevrilməsi qeyri-realdır, mümkünsüzdür. Dünyanın ayrı-ayrı ölkələrində öz mövqeyini itirən terrorçu qruplara işğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan hökuməti tərəfindən münbit şərait yaradılıb, bu faktı bütün dünya bilir. Paşinyan bunu etiraf etsin. Bu gün Paşinyanı o qorxudur, əndişəyə salır ki, Azərbaycan öz ərazi bütövlüyünü müharibə yolu ilə bərpa edə bilər. Müharibə qorxusu Paşinyanı bu qorxunu, əndişəni özündən qovmaq üçün bu cür cəfəng fikirlər bildirməyə vadar edir".

*”...terrorçu qruplara işğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan hökuməti tərəfindən münbit şərait yaradılıb”*

A.Nağı qeyd etdi ki, Paşinyan hakimiyyətə gəldikdən sonra onun imzaladığı ilk fərman Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və Ermənistan qoşunlarının torpaqlarımızdan çıxarılması olmalı idi, o bu addımı atmadı. Paşinyanın bu kimi sərsəm açıqlamalarının arxasında onun siyasi uğursuzluğunun durduğunu deyən A.Nağı hesab edir ki, Ermənistan Azərbaycan torpaqlarını işğalda saxlamaqla heç nəyə nail ola bilməyəcək.

***İradə SARIYEVA***

---

**Ermənistan Baş naziri Nikol Paşinyan Qarabağ danışıqları ilə bağlı pozucu fikirlərini növbəti dəfə təkrarlayıb. O, Milandakı kilsədə keçirdiyi görüşdə bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin istənilən həlli Ermənistan, "Artsax" və Azərbaycan xalqları üçün məqbul olmalıdır:**

# Paşinyan pozucu "üçbucaqlı Qarabağ həlli" ideyasından Avropada da əl çəkmədi - Azərbaycan, Ermənistan və "DQR" xalqları...




***Fikrət Sadıqov:** ”Deyilənlər o qədər absurd ifadələrdir ki, Paşinyanın bu fikirlərini ciddi qəbul etmək mümkün deyil”*

"Mən sülh formulu təqdim etmişəm. Demişəm ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması Ermənistan xalqı, "DQR" xalqı və Azərbaycan xalqı üçün məqbul olmalıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ məsələsinin həllinin həm də Azərbaycan xalqı üçün məqbul olmasını bəyan edən ilk erməni lideriyəm. Bunun üçün Ermənistanda məni tənqid ediblər. Onlar deyiblər ki, Ermənistanın lideri Azərbaycan xalqı üçün niyə narahat olmalıdır? Ümidvaram ki, Azərbaycan Prezidenti də belə bəyanatla çıxış edəcək".

N.Paşinyan onu da qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair onun "düsturu" budur: "Bu isə o deməkdir ki, mən nə Serj Sarkisyanın, nə Robert Koçaryanın, nə də Levon Ter-Petrosyanın düsturundan istifadə etmək niyyətində deyiləm".

Bu yanaşmanın nədən ibarət olduğu barədə suala isə Paşinyan belə cavab verib: "Əgər mən deyirəmsə hər hansı bir həll üç xalq üçün məqbul olmalıdır, onda belə bir həllə bağlı istədiyimizi söyləmək o qədər də konstruktiv deyil. Mən Azərbaycan Prezidentini və ATƏT-in Minsk Qrupunun həmsədrlərini münaqişənin üç tərəf üçün məqbul olan bir həlli üzərində işləməyi təklif edirəm. Bu çox çalışmaqla əldə edilə bilən nəticədir və tərəfdaşlarımızı, dostlarımızı bunun üzərində işləməyə dəvət edirəm".

Göründüyü kimi, Paşinyan təklif etdiyi absurd variantdan əl çəkmək istəmir. O, Baş nazir olandan bəri separatçı tərəfin danışıqlarda tərəf olması istiqamətində səy göstərir. Baxmayaraq ki, bu variantı Azərbaycan və həmsədrlər qəbul etmir, amma Paşinyan yenə də bu cür cəfəng fikirlərdən əl çəkmir.

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Paşinyan o cür cəfəng fikirlər səsləndirməklə anlamır ki, Avropa da dəyişib: "Avropa 90-cı illərin Avropası deyil. Avropada Azərbaycanın diplomatiyası, lobbisi və bir sözlə, təbliğat maşını kifayət qədər işləyir. Avropa təsisatlarında Azərbaycanın nümayəndə heyətləri fəaliyyət göstərirlər. Paşinyan öz aləmində düşünür ki, yeni Baş nazir olaraq münaqişənin həlli ilə bağlı Avropada belə təkliflərlə çıxış etsə, ona inanacaqlar. Ancaq bu belə deyil. Çünki "Dağlıq Qarabağ xalqı" anlayışı absurddur. Erməni xalqı neçə xalq ola bilər?

*”Onun əsas məqsədi odur ki, danışıqlar prosesi uzansın”*

**Belədirsə, onda dünyanın ayrı-ayrı yerlərində yaşayan ermənilər ayrıca xalq kimi götürülməlidir. Yəni deyilənlər o qədər absurd ifadələrdir ki, Paşinyanın bu fikirlərini ciddi qəbul etmək mümkün deyil. O, sadəcə, bu cür fikirlər səsləndirməklə məsuliyyəti üzərindən atmağa çalışır. Onun əsas məqsədi odur ki, danışıqlar prosesi uzansın. Ona görə də təkrar-təkrar separatçı tərəfin danışıqlarda tərəf olması ilə bağlı səy göstərir".**

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, aparılan islahatlar çərçivəsində hakimiyyət dəhlizlərinin gəncləşdirilməsi prosesinin yeni mərhələsi başlayıb. Artıq hökumətdə yüksək vəzifə tutmuş, uzun illik məmur təcrübəsinə malik məmurlar yavaş-yavaş yerlərini cavan kadrlara verirlər.**

# Yaşlı məmurlardan vəzifəni yerə qoyanlar oldu, yaşlı deputatlar, nədənsə, hələ "möhkəm dayanıb"



## **Ramil Hüseynov:** *"Elə yaşlı deputat var ki, mandatsız qalmağı təsəvvür belə etmək istəmir"*

Bu taktika siyasi münasibətlər sistemində sivil kadr dəyişikliyinin yeni mərhələsinin başlanğıcıdır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev yaşlı məmurlarla görüşündə gənc kadrlara yer verməyin vacib olduğunu qeyd etdi. Nəticədə bir sıra yaşlı məmurlar, icra başçıları könüllü olaraq vəzifələri ilə vidalaşdılar. Özləri açıq şəkildə etiraf etdilər ki, bəlli bir yaş dövründən sonra işləmək çətindir. Ən başlıcası, bəlli bir yaşdan sonra əmək məhsuldarlığını yüksək səviyyədə saxlamaq, dinamik fəaliyyət göstərmək mümkün deyil.

O da məlumdur ki, gedən islahatlar prosesində Milli Məclisin deputatları da diqqətdən qaçmır. Çünki bu gün yaşı 70-i keçən deputatlar qanunverici orqanda daha çoxdur. Belə ki, deputatlardan 16 nəfərinin 70-dən çox yaşı var. 70 və daha yuxarı yaşda olan deputatlardan 15-i kişilərdir. Bunlar Fəttah Heydərov, Ziyad Səmədzadə, Hadı Rəcəbli, Vahid Əhmədov, Zeynəb Xanlarova, Ağacan Əbiyev, Eldar İbrahimov, Yaqub Mahmudov, Arif Rəhimzadə, Mixail Zabelin, Valeh Ələsgərov, Fəzail Ağamalı, Yevda Abramov, Mahir Aslanov, Xanhüseyn Kazımlı və Əhliman Əmiraslanovdur.

Maraqlısı odur ki, bir sıra yaşlı məmurlar, icra başçıları könüllü olaraq vəzifədən getdikləri halda, nədənsə, parlamentin yaşlı deputatları könüllü olaraq mandatdan imtina etmirlər. Hansı ki, növbəti seçkilərə 1 il qalıb və heç də az müddət deyil. Bütün hallarda, yaşlı deputatlar könüllü olaraq mandatdan niyə imtina etmirlər?

*"Bəziləri hesab edirlər ki, növbəti parlament seçkilərinə bir il vaxt var və bu elə də böyük müddət deyil"*

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bunun bir neçə səbəbi var: "Məsələ ondadır ki, Milli Məclis digər qurumlardan fərqli olaraq seçkili orqandır. Deputatlar seçki yolu ilə seçilir. İcraedici orqanlara rəhbərlik edənlər isə bura təyin edilir. O üzdən, bunların arasında müəyyən fərq var. Digər tərəfdən, parlamentdə oturan bəzi yaşlı deputatlar hesab edirlər ki, növbəti parlament seçkilərinə bir il vaxt var və bu elə də böyük müddət deyil. Onsuz da növbəti seçkilərdə iştirak etməyəcəklər. Ona görə də könüllü olaraq mandatdan imtina etməyi özlərinə rəva görmürlər. Daha konkret desək, mandatı itirmək istəmirlər. Elə yaşlı millət vəkili var ki, 25 ildən çoxdur deputatdır.

**Beləlıəri sanki mandatdan imtina etməyi özləri üçün böyük bir faciə hesab edirlər. Necə deyərlər, mandatsız qalmağı təsəvvür belə etmək istəmirlər. Yəni məsələnin bu tərəfi də var. Ancaq, hər halda, hesab edirəm ki, yaşlı deputatlar da yaşlı məmurlar kimi istefa verməyi bacarmalıdırlar".**

***Vidadi ORDAHALLI***

---

**ABŞ-ın Bakıdakı səfiri Örl Litzenberqer Azərbaycan hökuməti ilə iqtisadi islahatların aparılması məsələsini müzakirə etməyi planlaşdırdığını açıqlayıb. Onun sözlərinə görə, islahatlar davamlı olmalıdır: "Prezident İlham Əliyev Azərbaycanın gələcəyi naminə şəffaflığı artırmağın, korrupsiyaya qarşı mübarizənin vacibliyini dəfələrlə qeyd edib.**

# ABŞ səfiri Azərbaycan hökuməti ilə iqtisadi islahatlar məsələsində nəyi müzakirə edəcək...



## **Fikrət Yusifov:** *"ABŞ-ın bu yöndə təcrübəsi böyük olduğuna görə, görünür, bundan çıxış edərək bəzi tövsiyələr vermək istəyirlər"*

Bu proses güclü və davamlı islahatlar aparılmasını şərtləndirir. Ümidvaram ki, yeni təyin olunan hökumət üzvləri ilə görüşüb islahatlarla bağlı müzakirələr aparmaq fürsətim olacaq".

Azərbaycanda son illər ciddi və sistemli islahatlar aparılır. İnkişaf həm də mükəmməl idarəetmə deməkdir. Bu islahatlar bütün sahələri əhatə edir. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf dövlət idarəçiliyi sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir. Ölkənin çevik idarəçilik sisteminin olması inkişafın əsas şərtlərindən biridir. Azərbaycanda inkişafın təmin olunması istiqamətində köklü islahatlar həyata keçirilib. Bu sırada idarəçiliyin təkmilləşdirilməsi daim diqqət mərkəzində olub. Bu məqsədlə ayrı-ayrı dövlət orqanlarında islahatlar həyata keçirilib. Bəziləri ləğv olunub, digərləri isə birləşdirilib və ya tamamilə yeni dövlət orqanları yaradılıb.

Bir sözlə, zatən, Azərbaycanda islahatlar prosesi gedir. O zaman ABŞ-ın Azərbaycan hökuməti ilə iqtisadi islahatların aparılması məsələsini müzakirə etmək istəməsi nə deməkdir? Qarşı tərəf islahatlar məsələsində nəyi müzakirə edəcək?

*"Müzakirələrdə aparılan islahatların müsbət dəyərləndirilməsi də ola bilər"*

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov buna bir neçə kontekstdən yanaşdı: "İnkişaf etmiş ölkələrin istənilən səfiri islahatlar məsələsini Azərbaycan hökuməti ilə müzakirə edə bilər. Çünki bu dövlətlərin bəlli təcrübələri var, keçdikləri yol var. Bu inkişaf yolu aparılan islahatlar sayəsində əldə olunub. Deməyim odur ki, ABŞ-ın bu yöndə təcrübəsi böyük olduğuna görə, görünür, bundan çıxış edərək bəzi tövsiyələr vermək istəyirlər. Nəzərə almaq lazımdır ki, Azərbaycanda həyata keçirilən islahatların gedişatını Birləşmiş Ştatların ölkəmizdəki səfirliyi izləyir. Eyni zamanda, buna qiymət verirlər. Bütövlükdə, islahatlarla bağlı gedişatın müzakirə olunması və bu barədə hər hansı təklifin verilməsi çox normal bir hal kimi dəyərləndirilməlidir. ABŞ-ın dünyanın beynəlxalq maliyyə institutlarının üzərində təsirləri böyükdür. Xüsusən də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu üzərində təsir imkanları genişdir. Bu qurumların da inkişaf etməkdə olan ölkələrə islahatlarla bağlı yardım etmək imkanı var. Müzakirələrdə aparılan islahatların müsbət dəyərləndirilməsi də ola bilər. Çünki beynəlxalq reytinq agentliklərinin hesabatlarında Azərbaycan bir sıra göstəricilərə görə önəmli yerdə qərarlaşıb. Bu kimi məsələlərə də toxunula bilər".

***Vidadi ORDAHALLI***

**Bu günlərdə Prezident İlham Əliyev yəhudi icması ilə görüşdə haqlı olaraq onları faşist Njdenin abidəsinin sökülməsinə dəstək verməyə çağırdı. Çünki bu gün yalnız Ermənistanda faşizm irsi dövlət səviyyəsində qorunur. Njdeyə abidənin ucaldılması buna əyani sübutdur.**

# Ermənistanda yəhudi icması? - ermənilərin yəhudi milli hissləri ilə oynamasına dünya yəhudiləri dözəcəkmi...



***Məhəmməd Əsədullazadə:** "Ermənilərin özləri üçün yaratdıqları qondarma yəhudi icması yəhudiliyə savaş açmaq deməkdir"*

Bu arada Ermənistan mətbuatına özünü bu ölkədəki yəhudi icmasının rəhbəri kimi təqdim edən Rimma Varjapetyan adında bir məxluq sözügedən məsələ ilə bağlı edilən çağırışa qarşı çıxıb və əsassız kəskin fikirlər səsləndirib. O iddia edib ki, guya Ermənistanın yəhudi icması bir ictimai təşkilat olaraq 1991-ci ildən bəri mövcuddur. Həmçinin bildirib ki, guya yəhudilər əsrlər boyu tarixi Ermənistan ərazisində yaşayıblar: "Bütün səviyyələrdə yəhudiləri çağırıram ki, belə çıxışlara etibar edilməməlidir. Bu, başqa bir təxribatdır, təkcə Ermənistana deyil, ilk növbədə, yəhudilərin özlərinə qarşı təhqirdir ".

Açıq-aşkar görünür ki, R.Varjapetyan yəhudilərin milli hissləri ilə oynayır. Məsələ ondadır ki, Ermənistan monoetnik dövlətdir. Məgər Ermənistanda yəhudilər yaşayırlar? Ermənistanda azsaylı etniklərdən yalnız yezidi kürdlər qalmışdılar ki, onlar da son illər ciddi assimilyasiyaya məruz qalıblar. Daha konkret desək, ölkədən müxtəlif vasitələrlə çıxarılıblar. Bir müddət Ermənistan hakimiyyəti istədi ki, yezidi kürdlərin adından istifadə etsin, amma alınmadı. İndi də yəhudilərin adından istifadə edilir. Hansı ki, bu ölkədə yəhudilərin varlığından söhbət gedə bilməz. Ona görə ki, Ermənistanda yəhudilər yaşamırlar. Ancaq ermənilər bununla yəhudilərin milli hissləri ilə oynayırlar. Ona görə də yəhudi təşkilatları buna dözməməli və məsələyə öz kəskin münasibətlərini bildirməlidirlər.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bütün bunlar ermənilərin növbəti fitnəkarlığıdır. O üzdən, yəhudi təşkilatları buna öz münasibətini bildirməlidirlər: "Prezident İlham Əliyevin Ermənistanda faşizmin təbliği simvoluna çevrilən Qaregin Njdenin abidəsi barədə qeyd etdikləri, göründüyü kimi, bu ölkədə ciddi narahatlıq yaradıb. Çünki yaxşı bilirlər ki, faşizm bir insanlıq cinayətidir. Həmçinin, yəhudilərin Holokostunun əsas səbəbkarıdır. Müasir dünyada faşizmi təbliğ etmək yəhudiliyə qarşı gəlmək deməkdir.

*"Müasir dünyada faşizmi təbliğ etmək yəhudiliyə qarşı gəlmək deməkdir"*

Hesab edirəm ki, Prezident İlham Əliyevin faşist Njdenin abidəsinin sökülməsi barədə yəhudi lobbisinə müraciəti məhz sülh və əməkdaşlığın regionda inkişafına hesablanıb. Digər tərəfdən, Ermənistanda yəhudi icması yoxdur. Orada özləri üçün yaratdıqları qondarma yəhudi icması isə yəhudiliyə savaş açmaq deməkdir. Bu gün Azərbaycanla beynəlxalq yəhudi icması arasında sıx əməkdaşlıq atmosferi mövcuddur. Göründüyü kimi, ermənilərin özlərindən guya Ermənistanda yəhudi icması yaratması, qondarma icma sədrini mətbuata çıxarması açıq təxribatdır. Ona görə də yəhudi icmasını hərəkətə gətirmək lazımdır. Çünki Ermənistan daim belə bir aldadıcı manevrlərlə dünyanı aldadır. Azərbaycan bu barədə beynəlxalq yəhudi icmasını məlumatlandırmalıdır. Onların adından istifadə edildiyi bəyan olunmalıdır. Belə bir həyasız hərəkətin qarşısı alınmalıdır. Yəhudi icmasını bu kimi məsələlərin qarşısını almağa çağırıram".

***Vidadi ORDAHALLI***

---

**Hiss olunur ki, son vaxtlar daha çox çalxalanan partiyalardan biri Müsavatdır. Düzdür, bu partiya zaman-zaman daha ciddi yarpaq tökümlərinə məruz qalıb. Demək olar ki, partiyanın üzvü olan bütün tanınmış ziyalılar qurumu tərk edib.**

# Müsavat Partiyası niyə çalxalanır - prosesin siyasi, şəxsi-emosional və strateji kökləri...




***Səxavət Əlisoy:** "2014-cü ildən sonra ləyaqətçiliyi saxtakarlıqla əvəz etdilər"*

Müsavatın tamamilə parçalanması isə başqan dəyişikliyinin reallaşdığı 2014-cü ildəki qurultaya təsadüf etdi. Həmin qurultayda İsa Qəmbər başqanlıqdan getdi. Onun yerinə yeni başqan seçildi. Əsas iddialılar Qubad İbadoğlu ilə Arif Hacılı idi. Çox cüzi səslə Qubad İbadoğlu Arif Hacılıya məğlub oldu. Bununla razılaşmayan Qubad İbadoğlu və tərəfdarları partiyanı tərk edərək ADR adlı yeni hərəkat yaratdılar. Partiyanı tərk edənlər bildirdilər ki, orada yalnız brend kimi Müsavat adı və Arif Hacılının ətrafı qalıb.

Sonuncu qurultayda da vəziyyətin gərginliyi, partiya daxilində qruplaşmaların bir-birinə qarşı barışmaz mövqedə olması üzə çıxdı. Bunun ardınca isə Müsavatın adı mühacir qalmaqalında çəkilməyə başladı. Almaniya Polisinin keçirdiyi əməliyyat nəticəsində Müsavatın Avropa qanadının bir neçə funksioneri həbs olundu. Bu faktın özü də göstərdi ki, Müsavatın daxilində vəziyyət heç də ürəkaçan deyil. Çünki partiya rəhbərliyi kənardan daha çox indiki və sabiq üzvləri tərəfindən tənqid edildi. Müsavatın bu şəkildə çalxalanmağının səbəbini nə ilə izah etmək olar?

Uzun müddət Müsavat Partiyasının rəhbər strukturlarında çalışan, 2014-cü ildə başqanlığa namizəd olan Səxavət Əlisoy qəzetimizə açıqlamasında bildirdi ki, bu gün Müsavatı daha çox onun daxilindən tənqid edirlər: "Həmin adamların adını da çəkə bilərəm. Yadigar Sadıqlı, Elman Fəttah, Yafəs Əkrəmoğlu Arif Hacılının başqan seçilməsi üçün dəridən-qabıqdan çıxdılar. Məhz həmin adamlar sosial şəbəkələrdə mənim əleyhimə yazılar yazırdılar. Niyəsini bilirsiniz? Mən Arif Hacılının başqan olmasına qarşıydım. Bugünkü fəlakəti qabaqcadan görə bilirdim. Onlar isə A.Hacılını xilaskar gözündə görürdülər. Hazırda Müsavatı yıxıb yerə sürüyən də elə həmin adamlardır. Onlar burunlarından uzağı görsəydilər, Müsavat bu günə düşməzdi. Hesab edirəm ki, partiyanın bu şəkildə nüfuzdan düşməsinin bir səbəbkarı var, o da A.Hacılıdır. A.Hacılı həqiqətən "böyük" siyasətçidir. Çünki Müsavat Partiyasının dağıdılmasında onun böyük zəhməti olub. Görün nə qədər böyük adamdır ki, Müsavat kimi partiyanı bir dərnəyə çevirməyi bacardı. Biz sadə müsavatçını necə qınaya bilərik? Ömrünü bunlara həsr edən sadə müsavatçı təbii ki, yaranmış vəziyyəti ürək ağrısı ilə izləyir və təəssüf keçirir. 2014-cü ildə obyektiv mövqe tutmaq lazımıydı. O vaxt 6 səs çoxluğu ilə Hacılı başqan seçilə bilməzdi. Fəlakətin əsası elə ondan başladı. Bir müəssisədə baş verən nöqsana görə oranın başçısından hesab soruşulur.

Burada da məsuliyyəti A.Hacılı daşıyır. Naxçıvandan, Zaqataladan olan sıravi müsavatçının burada heç bir təqsiri ola bilməz. Sonda bir şeyi demək istəyirəm. Müsavat Partiyasının təməl prinsiplərindən biri ləyaqətçilikdir. Elə bilirəm bunun nə olduğunu geniş açıqlamağa zərurət yoxdur. 2014-cü ildən sonra ləyaqətçiliyi saxtakarlıqla əvəz etdilər. Elə buna görə də Müsavat bu şəkildə çalxalanır".

***Məhəmmədəli QƏRİBLİ***

# Qanunsuz mühacir ticarəti ilə məşğul olanların cinayəti Azərbaycanda da araşdırılacaq...

## Əli Həsənov: "Mühacir ticarətini quran işbazlar, o cümlədən, bu işdə əlini qızdıran bəzi siyasi partiyalar və siyasətçilər üzə çıxacaq"

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun "Trend"ə müsahibəsi.**

**- Əli müəllim, bu günlərdə Almaniyada "miqrant alveri"nə görə bir qrup azərbaycanlının həbs edilməsi böyük rezonans yaratdı. Məlum oldu ki, bəzi müxalifət təmsilçiləri saxta sənədlərlə bir sıra şəxslərin Avropaya yerləşməsinə yardımçı olublar. Bu barədə fikirlərinizi öyrənmək istərdik.**

- Miqrasiya məsələləri, bir ölkədən başqa ölkəyə köç etmə, mövsümi və ya daimi yaşayış yerini dəyişmə, ayrı-ayrı səbəblərdən bir ölkədən başqa ölkəyə müvəqqəti və ya daimi keçid normal prosesdir. Müstəqillik dövründə Azərbaycandan xarici ölkələrə köç edənlər, mövsümi və daimi yaşayış yerini dəyişənlər, o cümlədən, Azərbaycana xarici ölkələrdən gələnlər, öz daimi yaşayış yerini Azərbaycan seçənlər də var. Bu, təbii prosesdir, normaldır, qloballaşma dövründə, qlobal dünyada bu prosesləri, prinsipcə, həm dövlətlər, həm də transmilli şirkətlər təqdir edirlər. İnsanların bu istəyini reallaşdırmaq məqsədilə bəzən hüquqi yardım, bəzən bu və ya digər məsələdə ona kömək göstərmək, yol göstərmək üçün müvafiq qurumlara müraciəti də təbiidir. Çünki xarici ölkələrin hər birinin özünün milli qanunvericiliyi var, Avropa Birliyi ölkələrində Avropa şengen viza normaları var, oraya getmək, yerləşmək və qalmağın müddətli planları mövcuddur. Ona görə də insanlar əgər köçməklə bağlı müraciət edənlərə qanunlar çərçivəsində yardım göstərirlərsə, bu, təbiidir. Yox, əgər onlar qanunun icazə vermədiyi vasitələrlə, o cümlədən, bu insanların həyatı, fəaliyyəti, onların yaşadığı ölkədəki vəziyyəti ilə bağlı sənədləri saxtalaşdıraraq bu işə yardım göstərirlərsə, bunun adı həm Azərbaycanda, həm də xarici ölkələrdə cinayətdir. Ona görə də son zamanlar Azərbaycandan gedən, Avropada yerləşən insanların indi geriyə qayıtma prosesi başlayıb və bu prosesi Azərbaycan dövləti deyil, Avropa dövlətləri başladıb.



**- Bəs, Almaniyadan deport edilən azərbaycanlıların taleyi necə olacaq, onlarla bağlı hansı tədbirlər görüləcək?**

- Avropa dövlətləri artıq miqrant məsələlərində müəyyən nizamintizam yaratmağa başlayıb və bu insanlar geri qaytarılır. Biz dövlət olaraq hər bir vətəndaşımız üçün cavabdehik, hər bir vətəndaşımızın geri qayıdışında, yerləşməsində müvafiq olaraq Azərbaycan cəmiyyətində özünün həyatını qurmasında lazımi yardımı göstərəcəyik. Hər bir dövlətin vəzifəsi öz vətəndaşına iş üçün, həyat üçün şərait yaratmaqdır. Və geri qayıdanların hər birinin fəaliyyəti müvafiq orqanlar tərəfindən araşdırılır, nə zaman gediblər, niyə gediblər, onların getməsində hansı səbəblər olub, kimlər yardım göstərib, onlara qanuni və ya qeyri-qanuni yolla yardım göstərilib?! Burada həmin o mühacir ticarətini quran işbazlar, o cümlədən, bu işdə əlini qızdıran bəzi siyasi partiyalar və siyasətçilər üzə çıxacaq. Bəlli olacaq ki, bu insanlara kimlər və hansı adla, niyə yardım göstərib və bunun müqabilində hansı vəsaiti qazanıblar, əldə etdikləri qazanc qanunidir, yoxsa qeyri-qanunidir, vergiyə cəlb olunub, yoxsa olunmayıb. Və yaxud da qanunlara əməl ediblər, yoxsa pozublar. Düşünürük ki, bütün bu məsələlər aydınlaşacaq. Amma, dediyim kimi, bu prosesi Azərbaycan dövləti başlamayıb, bunu Avropa dövlətləri başlayıb. Bizim də vətəndaşlar Avropadan qayıdan həmin vətəndaşlar sırasında olduğuna görə biz də bu məsələdə tərəf olaraq iştirak edirik və edəcəyik.

**- Bu hadisələr sözsüz ki, Azərbaycanın imicinə zərər vurur. Bu prosesdə iştirak edən dələduzlara qarşı hansı müvafiq tədbirlərin görülməsi gözlənir?**

- Azərbaycanın miqrasiya orqanı gələn vətəndaşların hər birini qarşılayır, onlarla bağlı müvafiq araşdırmalar aparır. Düşünürəm ki, qarşıdan gələn müddətdə biz bu prosesi təşkil edənləri aydınlaşdıracağıq. Bu prosesi Azərbaycanın imicinə zərbə vuraraq həyata keçirənlər, sanki Azərbaycanda söz, mətbuat azadlığı yoxdur adı ilə bir qrup yaradıcı insanları, Azərbaycanda fəaliyyət azadlığı yoxdur adı ilə bir qrup siyasiləşmiş insanları ölkədən çıxarıblar. Azərbaycanda mülkiyyət və əmək hüquqları tapdalanır adı ilə müəyyən iş adamlarını ölkədən çıxarıblar və başqa-başqa adlarla milli mənsubiyyətini dəyişərək azərbaycanlının üstünə erməni adı qoyub, sonra da belə adlandırıblar ki, guya Azərbaycanda başqa millətin, başqa dinlərə mənsub olan insanların yaşamağa haqqı yoxdur, guya burada diskriminasiyaya məruz qalırlar. Yəni bunların hamısı, bildiyiniz kimi, qanun pozuntusudur, cinayətdir və bunlar araşdırılaraq müvafiq tədbir görüləcək. Cinayət törətmiş qrup və ya insanlara gəlincə, onlarla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır. Nəinki bizim, o cümlədən, Almaniya, Fransanın da hüquq-mühafizə orqanları araşdırma aparır. Bu işdə cinayətə əli bulaşan insanlar da layiqli cəzalarını alacaqlar.

Amma Azərbaycan dövləti hər bir qayıdan vətəndaşına sahib çıxacaq, Azərbaycanda yaşamaq istəyən vətəndaşlarımıza münbit şərait yaradılacaq. Azərbaycan qanunlarını pozmaq istəyən, Azərbaycan qanunlarına, dövlətinə, dövlətçiliyinə qarşı fəaliyyət göstərən insanlar da qanun çərçivəsində qiymətlərini alacaqlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Dünya mediası Ermənistanın işğal siyasətinə qarşı açıq mövqeni gücləndirir...

**Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən biri Ermənistanın hələ də davam etdirdiyi işğalın beynəlxalq miqyasda tam ifşa olunaraq qınaq və təzyiq obyektinə çevrilməsidir. Ötən müddət ərzində bu istiqamətdə ölkəmizin mühüm uğurlara imza atması da birmənalı həqiqətdir. Ermənistanın işğal siyasətini pisləyən çoxsaylı sənədlərin, qərarların, qətnamələrin qəbulu da bunun təsdiqidir.**

Eyni zamanda diqqət mərkəzində saxlanan başlıca məqamlardan biri dünya ictimaiyyətinin daha geniş miqyasda Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərdən xəbərdar olmasıdır. Bu məqsədlə nüfuzlu beynəlxalq media vasitələrində Qarabağ konfliktinə dair materialların yayımlanması da mühüm önəm kəsb edir. Son dövrlərdə bu istiqamətdə bir-birinin ardınca beynəlxalq mediada yer alan materiallar isə erməni tərəfi üçün növbəti zərbə sayılır. Məhz belə bir vaxtda baş nazir Nikol Paşinyanın İtaliyaya səfəri fonunda bu ölkənin "Lopinione" qəzeti Ermənistanın işğal siyasəti barədə geniş yazı dərc edib. Burada işğal siyasəti ən sərt formada tənqid olunur: "Təxminən otuz ildir Azərbaycanın Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanır və bu yaxınlarda qeyd olunan münaqişə yeni siyasi ssenarilərlə yenidən beynəlxalq birliyin diqqət mərkəzinə gəlib. Ermənistanın baş naziri Dağlıq Qarabağın Ermənistana mənsub olduğunu iddia etməklə işğal olunmuş ərazilərdən çıxmaq arzusunda olmadıqlarını ifadə edib, bu mövqe beynəlxalq səviyyədə kəskin tənqid olunub, həmçinin buna Azərbaycan rəhbərliyi tərəfindən düzgün cavab verilib.

Bundan əlavə, xatırladaq ki, münaqişənin özü bir milyondan çox azərbaycanlının öz torpaqlarından qovulması ilə nəticələnib və həmin şəxslər hazırda qaçqın və məcburi köçkün kimi yaşamaqdadırlar. Bu isə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən BMT-nin çoxsaylı qətnamələri ilə ziddiyyət təşkil edir. Dağlıq Qarabağ münaqişəsi, xüsusilə Azərbaycanın strateji əhəmiyyəti barədə geosiyasi təhlil və beynəlxalq münasibətlər baxımından maraq kəsb etdiyi kimi, həmçinin Ermənistandakı daxili vəziyyətin təhlili də regionun təhlükəsizliyi baxımından bir o qədər aktualdır. Qeyd etmək lazımdır ki, çətin iqtisadi vəziyyətə və Dağlıq Qarabağ münaqişəsini törətməsi səbəbindən təcrid olunduğuna görə Ermənistan regiondakı bütün əsas investisiya layihələrindən kənarda qalır və bunun bədəlini öz xalqı ödəyir. Əksəriyyət baş nazirin diktator davranışından danışır.

Paşinyan ölkədəki ciddi sosial-iqtisadi böhrandan əziyyət çəkən xalqın nümayişləri sayəsində hakimiyyətə gəlib. Təbii resurslar baxımından kasad olan və dənizə çıxışı olmayan Ermənistan müsbət dəyişikliklərə öz qonşuları, xüsusilə Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmaqla nail ola bilər. Hələ ki, Paşinyan bu istiqamətdə müsbət addımlar atmamağı, əksinə, mənfi mövqe nümayiş etdirməyi qərara alıb, bu isə Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinin dayandırılmasına gətirib çıxara bilər. Bu istiqamətdə davam etmək isə, təəssüf ki, nə Ermənistan, nə də Paşinyanın gələcəyi üçün müsbət nəsə vəd edir".

Bu günlərdə ABŞ-ın nüfuzlu "The Press Herald" qəzetində də Ermənistanın işğal siyasətini pisləyən yazı dərc olunub. Məqalədə Azərbaycanın Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğal edildiyi və Ermənistanın vassal dövlət olduğu bildirilir. Həmçinin qeyd olunur ki, Qarabağ müharibəsi vaxtı erməni silahlı qüvvələri hərbi cinayətlər törədiblər. Məşhur "Modern Diplomacy" portalı da Ermənistanın işğal siyasətinin davam etməsinin regiona ciddi təhdidlər yaratdığını, eyni zamanda işğalçı ölkədə faşizmin çiçəklənməsinə rəvac verdiyini vurğulayır. Qeyd olunur ki, müharibə cinayətkarlarının, faşistlərin və terrorçuların Ermənistanda indi milli qəhrəman elan edilməsi nəinki ATƏT-in Minsk Qrupu tərəfindən aparılan sülhün bərpa edilməsi təşəbbüslərinə mane olur, eyni zamanda bu qanlı əməllərə haqq qazandırır və yeni nəsillərə onları örnək kimi təbliğ edir. Dünyada ziddiyyətli şəxslərin şərəfinə ucaldılmış abidələrin dağıdılması aksiyasından nümunə götürərək ermənilərin də bu cinayətkarların adının əbədiləşdirilməsinə son qoyması tövsiyə olunur. Vurğulanır ki, bu, Ermənistan və onun türk qonşuları arasındakı münasibətlərin normallaşması, münaqişələrin həlli və bölgədə sülhün bərpa edilməsi üçün faydalı başlanğıc olardı.

Türkiyədə fəaliyyət göstərən Avrasiya Araşdırmalar Mərkəzinin saytında tanınmış fransız tarixçi Maksim Qauin də Ermənistanda faşizmin çiçəklənməsinin və işğal siyasətinin davam etməsinin ciddi təhdid mənbəyi olduğunu vurğulayır:"2019-cu ilin oktyabr ayında Azərbaycan prezidenti İlham Əliyev Njde kimi faşistləri dəstəkləyənlərə səyğı göstərdiyi üçün Nikol Paşinyanı ittiham edəndə, o müqavimət göstərməyə çalışdısa da, özünü təkzib etdi. Njde təkcə faşistlərlə əməkdaşlıq edənlərdən deyil, həm də alman əsilli olmayanlar üçün faşist doktrinasının hazırlanmasında ən çox səy göstərənlərdən biri olub. Faşistlərlə əməkdaşlıq edən tanınmış şəxslər arasında təkcə Njde Ermənistanın dövlət qurumları tərəfindən "milli qəhrəman" kimi təqdim olunur. Bundan başqa, Ermənistanın indiki halda Azərbaycan ərazilərini də işğalda saxlaması ciddi təhdid mənbəyi olaraq qalır. Dünya ictimaiyyəti, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədri olan Fransa bu məsələdə qəti hərəkət etməlidir". Yeri gəlmişkən qeyd edək ki, bu mövqe Fransa parlamentinin deputatı Mişel Vyale tərəfindən də bölüşülür: "Münaqişəni yenidən danışıqlar masasına gətirmək, vəziyyətə dəyişiklik etmək, vasitəçi rolunu oynamaq xarici diplomatiyanın işidir. Bu baxımdan Fransa diplomatiyası mühüm rol oynaya bilər. Ancaq bununla belə, ölkəmizin fəal rolunu görmürəm. Halbuki, Fransanın bu məsələdə öz şəxsi marağı olmalıdır. Çünki ilk növbədə, Qafqazın stabilliyi məsələsi çox vacibdir. Fransa diplomatiyası keçmişdə parlaq idi. Hətta bu gün Avropaya dair məsələlərdə belə Fransanın beynəlxalq səhnədə təkləndiyini görürük. Mənim kifayət qədər diplomatiya həyata keçirdiyimiz təəssüratım yoxdur. Ona görə də təəssüflənirəm. Çünki sabiq prezident Fransua Olanda nisbətən hazırkı dövlət başçısı Emmanuel Makronla vəziyyət dəyişə bilərdi. Fransua Olland yalnız özünə yaxın şəxslərlə anlaşa bilirdi. Ancaq dostlarımızla danışmaq darıxdırıcıdır. Bu formada öz ətrafımızdakı dostları heç vaxt artıra bilmərik".

Finlandiyanın "Kansanutiset" qəzeti isə yazır ki, Ermənistanın işğal siyasəti nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi siyasi və hərbi qarşıdurma meydanı kimi çoxsaylı insan itkilərinə şahidlik edib: "Hesablamalara görə, münaqişə nəticəsində 800 minə yaxın azərbaycanlı məcburi köçkünə çevrilib. Hərbi əməliyyatlar zamanı iki tərəfdən minlərlə əsgər və mülki şəxs həlak olub. Bu səbəbdən münaqişəni "dondurulmuş" hesab etmək olmaz. Cəbhə xəttində hər gün atəşkəs rejimi təxminən 20 dəfə pozulur. Ermənilər mövqeləri doldurmaq üçün adam tapmaqda çətinlik çəkirlər və bu səbəbdən öz qüvvələrini atəş bölgəsində cəmləşdirirlər.

Müharibə vaxtı evlərindən didərgin düşmüş insanların əksəriyyəti hələ də Azərbaycanın müxtəlif rayonlarında məskunlaşıb. "Dağlıq Qarabağın Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Tural Gəncəliyev bildirib ki, təşkilatın əsas vəzifələrindən biri bu insanların çəkdiyi əzabların sona çatmasıdır. "Biz həyatımızın sonunadək bu vəziyyətdə yaşamaq istəmirik. Bu cür vəziyyət artıq təxminən 28 ildir ki, davam edir", deyən Gəncəliyev ermənilərin və azərbaycanlıların birlikdə yaşadıqları vaxtları xatırlayır: "Bizim erməni icmasına əsas mesajımız ondan ibarətdir ki, biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində yenə bu cür yaşamaq istəyirik. Bununla belə, zamanı geriyə döndərmək olmaz. Artıq qaçqın kimi üçüncü nəsil böyüyür". O əlavə edib ki, ermənilərin öz yerlərində yaşamasını istəyir: "Lakin onlar da başa düşməlidir ki, azərbaycanlıları öz doğma yurdundan qovmaq olmaz". Hərbi əməliyyatlar zamanı Ermənistan təkcə Azərbaycanın bu bölgəsini deyil, həmçinin ona bitişik yeddi rayonu da işğal edib. Atəşkəs haqqında sazişə də indiyədək lazımınca əməl edilməyib və münaqişənin nizamlanmasında mühüm rolu Rusiya, ABŞ və Fransanın həmsədri olduqları, habelə Finlandiyanın da üzvü olduğu ATƏT-in Minsk Qrupu oynayır. Dağlıq Qarabağa gəldikdə isə, BMT Təhlükəsizlik Şurası ermənilərin silahlı qüvvələrinin Azərbaycanın bu bölgəsindən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Amma Ermənistan hələ də işğala son vermir və beynəlxalq sənədlərə məhəl qoymur".

Beləliklə, təkcə son bir ayda beynəlxalq mediada Qarabağ münaqişəsinə dair dərc edilən yazılardan aydın görünür ki, Ermənistanın işğal siyasəti kəskin surətdə pislənir.

Konfliktlə bağlı dünya mediasında dərc edilən materialların sayını daha da artırmaq olar. Onlarda əsas ortaq mövqe isə işğal siyasətinin tənqid hədəfinə çevrilməsidir. Dünya mediasında yer alan bu fikirlər, şübhəsiz ki, beynəlxalq ictimaiyyətin Qarabağ münaqişəsinə dair mövqeyinin formalaşmasına da təsirsiz ötüşmür və bu mövqe həç də Ermənistanın lehinə deyil. Eyni zamanda, bunlar həm də Azərbaycanın beynəlxalq uğurları sayıla bilər.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşazadənin erməni katolikosu ilə görüşü Qarabağ probleminin həlli prosesinə nə verə bilər...

**İsmayıl Tanrıverdi:** *"Şeyxlə erməni katolikosunun görüşü baş tutarsa, ondan hər hansı bir müsbət irəliləyiş gözləmək olmaz"*

**Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması əsas prioritetdir. Məlum olduğu kimi, Ermənistanın bütün davranışları münaqişənin həllinin uzadılmasına, torpaqlarımızın daha uzun müddətdə işğal altında saxlanmasına xidmət edir.**



*"Həmişə olduğu kimi, erməni katolikosu öz cəfəng fikirləri ilə əsl mətləbdən uzaqlaşacaq və oyunbazlıq edəcək"*

Bilirik ki, Ermənistanda həm siyasi qüvvələr, həm hökumət, həm də dini təsisat sülh naminə deyil, Azərbaycan torpaqlarının erməni işğalında qalması üçün fəaliyyət göstərirlər.

Həm keçən dövrlərdə, həm də müasir dövrdə Ermənistan katolikosları münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə qarşı olublar və bu istiqamətdə çirkin oyunlarını, təbliğat və fəaliyyətlərini davam etdiriblər.

Azərbaycan tərəfi bütün dövrlərdə münaqişənin həllinə çalışıb və torpaqlarımızın sülh, yaxud müharibə yolu ilə geri qaytarılmasına nail olmaq üçün müxtəlif addımlar atıb. Ölkəmiz münaqişənin həlli istiqamətində hər iki tərəfdən dini liderlərin görüşüb bu məsələni müzakirə etməsinin tərəfdarı olsa da, Ermənistan yenə də öz əməlindən qalmayıb.

Bu gün Azərbaycan və Ermənistanın dini liderlərinin yenidən görüşməsi məsələsi aktuallaşıb. Belə ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Örl Litzenberqeri qəbul edərkən qeyd edib ki, Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədədir, dövlət dini dəyərlərə, abidələrə və mənəvi irsə qayğı göstərir. O, həmçinin, vurğulayıb ki, dini mərkəz olan Qafqaz Müsəlmanları İdarəsi dinlərarası dialoq istiqamətində tədbirlər həyata keçirir.

QMİ sədri Azərbaycan Prezidenti İlham Əliyevin səyləri sayəsində Azərbaycan dövlətinin beynəlxalq müstəvidə dinlərarası dialoq və əməkdaşlıq məsələlərinə verdiyi önəm və töhfələrdən söhbət açıb.

Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə Bakıda keçirilmiş Dünya Dini Liderlərinin II Bakı Sammitində ABŞ-dan təşrif buyurmuş geniş nümayəndə heyətinin çoxkonfessiyalı tərkibinin fəal iştirakından məmnun qaldığını bildirən QMİ sədri Zirvə görüşünün doğurduğu beynəlxalq rezonans barədə məlumat verib: "Azərbaycanın təşviq etdiyi, insan həmrəyliyinə xidmət edən multikulturalizm ideyalarına dünyanın ehtiyacı var və II Bakı Sammiti bu ümdə həqiqəti bir daha nümayiş etdirib. Dünyada mövcud olan və insan qırğınları ilə müşayiət olunan münaqişə bölgələrinin təmsilçilərinin bir araya gəlməsi, bu münaqişələrin qarşısının alınması üçün siyasi, dini, ictimai xadimlərin səylərinin birləşdirilməsi böyük dəyər kəsb edir".

QMİ sədri sammitdə nifrət çağırışlarına qarşı, dindən siyasi məqsədlər üçün istifadə olunması əleyhinə, habelə dini-mənəvi irsin saxtalaşdırılması, mənşəyinin dəyişdirilməsi və s. kimi ümumbəşəri məsələlərə dair ümumi mövqenin ifadə olunmasını, bunların Bakı Bəyannaməsində əksini tapmasını müsbət dəyərləndirdiyini bildirib.

ABŞ səfiri isə, öz növbəsində, QMİ sədrinin dinlərarası əməkdaşlıq işinə verdiyi töhfələri qeyd edərək, Şeyxülislamın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması yönündə səylərini xüsusi vurğulayıb.

O, ATƏT-in Minsk Qrupunun həmsədr dövləti kimi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasının işinə xidmət edən belə ünsiyyətləri yüksək dəyərləndirdiklərini şeyxülislamın diqqətinə çatdırıb. Erməni dini lideri ilə təmasların davamlı olmasının əhəmiyyətini qeyd edən amerikalı səfir belə görüşlərin, müxtəlif səviyyədə cəmiyyət nümayəndələrinin - jurnalistlərin, dini icma nümayəndələrinin, qadın fəalların qarşılıqlı səfər və müzakirələrinin xalqlar arasında sülhün baş tutacağına ümidləri artırdığını bildirib.

Şeyxülislam A.Paşazadə öz tərəfindən, 1988-ci ildən bəri erməni dini liderləri ilə keçirdiyi görüşlər, o cümlədən, MDB Dinlərarası Şurasının həmsədri kimi İrəvana səfəri, erməni katolikosunu I Bakı Sammiti çərçivəsində Bakıya dəvət etməsi barədə danışıb. QMİ sədri bu görüşlər zamanı əldə olunmuş razılaşmalara erməni tərəfinin davamlı şəkildə əməl etməməsindən narazı qaldığını bildirib, lakin ümumən dini liderlərin görüşlərinə dair səfirin təklifini müsbət dəyərləndirib. A.Paşazadə həqiqətə, ədalətə istinad etmə şərtilə belə görüşlərə ümidlə baxdığını xüsusi vurğulayıb.

Şeyxülislam Allahşükür Paşazadə ilə erməni katolikosu II Qaregin görüşərsə, bu hər hansı bir nəticə verə bilərmi?

Bakı Dövlət Universitetinin Erməni Araşdırmaları Elmi-Tədqiqat və Tədris Mərkəzinin böyük elmi işçisi, ermənişünas alim İsmayıl Tanrıverdi "Bakı-Xəbər"ə bildirdi ki, şeyxin erməni katolikosu ilə görüşü baş tutarsa, bu görüşdən heç bir müsbət nəticə gözləmək mümkün deyil. İ.Tanrıverdi qeyd etdi ki, hələ Dağlıq Qarabağ münaqişəsinin başlandığı dövrlərdə bir neçə dəfə bu müstəvidə görüşlər təşkil edilib, lakin hər dəfə erməni katolikosu görüşün müsbət nəticə verməsinə qarşı olub. İndiyə qədər dini liderlər səviyyəsində baş tutan görüş və müzakirələrdə erməni katolikosunun sağlam mövqe sərgiləməməsinə görə danışıqlar prosesində hər hansı bir dönüş yaratmayıb. "Deyim ki, münaqişənin həlli istiqamətində nəticələrə nail olmaq üçün hər zaman Azərbaycan tərəfindən addımlar atılıb, bu addımların qarşılığında isə Ermənistanın siyasi hakimiyyəti heç bir addım atmayıb. Əksinə, ermənilər münaqişənin həlli ilə bağlı Azərbaycan tərəfin atdığı addımları təhrif ediblər, onu erməni cəmiyyətinə və beynəlxalq ictimaiyyətə tamam fərqli tərəfdən çatdırmağa çalışıblar. ABŞ səfiri təklif edir ki, münaqişənin həllində uğurlu nəticələr əldə edilməsi üçün şeyxlə katolikos görüşsünlər. Bir ermənişünas kimi deyim ki, şeyxlə katolikosun görüşündən müsbət nəsə gözləmək düzgün deyil. Niyə? Ona görə ki, 1988-ci ildən başlayaraq indiyə qədər şeyxlə erməni dini liderləri arasında görüşlər baş tutub, lakin hər dəfə erməni katolikosları bu görüşdə oyun oynayıblar. Katolikos Vazgen də Ermənistanın işğalçılıq siyasətini dəstəkləyirdi, nə dildə, nə də əməldə münaqişənin ədalətli həlli barədə fikir bildirmirdi. Erməni katolikosu II Qaregin də eyni siyasəti davam etdirir və o da Azərbaycan torpaqlarının işğalda saxlanmasını, ölkəmizə qarşı təcavüzü, terroru, vandalizmi dəstəkləyir. Gizlin deyil ki, Azərbaycan torpaqlarının işğal edilməsi planının arxasında məkrli erməni kilsəsi dayanır. Bu halda, erməni kilsəsi və o kilsənin rəhbəri Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə tərəfdar olarmı? Bu qədər hadisə baş verir, Ermənistan silahlı qüvvələri Azərbaycan rayonlarını atəşə tutur, uşaqlarımızı qətlə yetirir, işğal altında olan ərazilərimizdə ağlasığmaz vandalizm hərəkətləri törədir, amma katolikos bir dəfə də olsun terroru, vandalizmi pisləmir, lənətləmir. Bu baxımdan, fikrimcə, şeyxlə erməni katolikosunun görüşü baş tutarsa, ondan hər hansı bir müsbət irəliləyiş gözləmək olmaz, çünki bu görüşdə irəliləyiş əldə edilməsinə II Qareginin özü cəhd etməyəcək. Yəni həmişə olduğu kimi, erməni katolikosu öz cəfəng fikirləri ilə əsl mətləbdən uzaqlaşacaq və oyunbazlıq edəcək".

Azərbaycanın münaqişənin həlli üçün nə lazımsa etdiyini deyən İ.Tanrıverdi bildirdi ki, Ermənistanın siyasi hakimiyyəti və dini lideri isə hər zaman münaqişənin həllinə mane olmaq yolunu tutublar.

***İradə SARIYEVA***

# "Paşinyan əsir götürülüb" - Ermənistanda "qurtuluş hərəkatı" başladı...

**Ermənistanda mövcud hakimiyyətin əsas dayağı sayılan Corc Sorosun maliyyələşdirdiyi Açıq Cəmiyyət Fonduna qarşı ölkədə yeni etiraz aksiyalarına start verilib. Bunun əsas səbəbi odur ki, Sorosun hakimiyyətə gəlməsi üçün vəsait sərf etdiyi Nikol Paşinyan cəmiyyətin ümidlərini doğrultmayıb. İndi Paşinyandan yaxa qurtarmaq istəyənlər Sorosun baş nazirə dəstəyini kəsməsi üçün hərəkətə keçiblər.**

Bu fonda Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisi David Şahnazaryan qeyd edib ki, erməni xalqının bu yanaşması Nikol Paşinyanın hökuməti üçün təhlükəli həddə çatıb.

Erməni siyasətçi ölkə vətəndaşlarını beynəlxalq təşkilatların fəaliyyətini nəzarətdə saxlamağa çağırıb və onları maliyyələşdirən Corc Soros fondunun rəhbərinin bu ölkədə "məxməri inqilab"a kömək etdikləri barədə bəyanatını xatırladıb. O, hüquq-mühafizə orqanlarını da beynəlxalq təşkilatların ölkənin daxili işlərinə müdaxiləsi ilə bağlı tədbirlər görməyə, onların fəaliyyətini qadağan etməyə səsləyib. Bu arada İrəvanda Sorosun maliyyələşdirdiyi Açıq Cəmiyyət Fondunun binası qarşısında "VETO" erməni ictimai-siyasi hərəkatının üzvləri toplaşaraq həmin təşkilatın Ermənistanda bağlanmasını tələb ediblər. "VETO" hərəkatının rəhbəri Narek Malyan məsələ ilə bağlı bildirib: "Bu təşkilatın fəaliyyəti nəticəsində ölkəmizin milli təhlükəsizliyinə ziyan vurulduğunu dəfələrlə bildirmişik. Bu ofisdən ölkəmizə qarşı işləyənlərə maliyyə ayrılır, pozğunluğa rəvac verilir. Bizim qanunlar ölkəmizin təhlükəsizliyinə xələl gətirən hər hansı təşkilatın fəaliyyətinə yol vermir". O, bir qrup hüquqşünası cəlb edərək, Sorosa bağlı təşkilatın qadağan olunması barədə məhkəmə iddiası qaldıracaqlarını bildirib

Narek Malyan bundan əvvəl də Soros və Paşinyan iqtidarı arasında əlaqələrə dair maraqlı açıqlamalar verib: "Nikol Paşinyan əsir götürülüb. Sorosçular onu əsir götürüblər. Onlar baş nazirə öz iradələrini diqtə edir və onu cəfəngiyyat danışmağa vadar edirlər". Baş nazirin erməni transgender- ağırlıqqaldıran Mel Daluzyanla bağlı dediyi "o mənim şəxsi nəzarətim altındadır" sözlərinə münasibət bildirən Narek Malyan deyib: "Paşinyanın Daluzyanı kimdən qoruduğu sual doğurur, çünki heç kimin onunla problemi yoxdur. Bütün bunları nəzərə alaraq, Paşinyanın əsir götürüldüyü qənaətinə gəldik. Sorosçular əsir götürüblər. Öz iradələrini baş nazirə diqtə edir və onu cəfəngiyyat danışmağa məcbur edirlər. Məsələn, "Daluzyanı öz himayənə götür və məqsədəuyğun olmayan mənasız şeylər söylə". Nikol Paşinyanı antimilli gündəliyin icra mərhələsinə girməyə məcbur edirlər. Aksiyamızla biz Paşinyanın sərbəst buraxılmasını tələb edirik. Çünki hesab edirik ki, baş naziri Sorosun, xarici kəşfiyyat şəbəkəsinin caynağından qurtarmaq lazımdır. Biz hesab edirik ki, ayıq, adekvat bir insan bu cür açıqlamalar verə bilməz. Sadəcə alnına silah direyir və deyirlər ki, axmaqla, o da danışır".

Digər polittexnoloq Vigen Akopyan da bildirir ki, hakimiyyətə Klinton və Sorosun fondları tərəfindən maliyyələşdirilən tamamilə fərqli cərəyanlar, partiyalar və təşkilatlar daxil edilib: "Bu səbəbdən fərqli qruplar arasında mübarizə başlayıb. Müxtəlif maliyyə sektorlarına diqqət güclənir və buna daha çox Soros Fondundan maliyyəşənlər diqqət yetirirlər". Ermənistanın "İravunk" nəşri də vəziyyətin gərgin bir mərhələyə qədəm qoyduğunu yazır: "Bu vəziyyətdə degenerativ elementlər özünü o qədər yaxşı hiss edir ki, keçən ilin dövlət əleyhinə çevrilişindən sonra ardıcıl olaraq milli dəyərləri və adətləri ən alçaq və həyasız şəkildə inkar və məsxərə edirlər. Paşinyanın əsas elit dayağının məhz həmin degenerativ elementlərin olması düşüncəli insanın şübhəsi yoxdur. Bu degenerativ elementlərin hakimiyyətdə olmasını isə Soros Fondu təşkil edib və Paşinyan ondan asılı durumdadır. Bundan xilas olmayınca, Ermənistanın özünün xilası mümkün deyil".

Erməni mediası onu da yazır ki, həyatı əsasən Rusiyanın hərbi-siyasi və iqtisadi dəstəyindən asılı olan Ermənistanın reallığı Paşinyan və ətrafını təzliklə Sorosun, yeni Qərbin nüfuz dairəsindən bir qədər uzaqlaşmağa vadar etməli idi. Amma görünən budur ki, Paşinyanın Soros qarşısında götürdüyü və açıqlanmayan öhdəliklər də var və onlar baş nazirə Sorosdan qurtulmağa imkan vermir. Sorosun maliyyələşdirdiyi qurumlar və şəxslər isə Açıq Cəmiyyət İnstitutuna qarşı çıxanlar, o cümlədən Rusiya əleyhinə indi daha fəal mübarizə aparır. Onlardan biri olan Ermənistanın Vətəndaşlar Birliyi proqramının koordinatoru Daniel İoannisyan məhz belə bir vaxtda Ermənistanın Rusiyadan uzaqlaşdırılmasının vacibliyini bəyan edib:

"Ermənistanda demokratik dəyərləri inkişaf etdirmək üçün imkan yaranıb. Bunun üçün Ermənistanın Rusiyadan maksimum müstəqillik əldə etməsinə kömək etmək lazımdır. Bu otaqda heç kimə sirr deyil ki, Rusiya qonşuluqdakı hər hansı bir demokratikləşmə prosesini bəyənmir.



Rusiyadan müstəqillik əldə etmək üçün alternativ enerji istehsalını və Ermənistanda infrastrukturun inkişafını stimullaşdırmaq lazımdır. Bu, Rusiya qazının tədarükündən asılılığı azaltmaqla yanaşı, həm də Kremldən Ermənistana təzyiq etmək üçün əlavə bir qol olan erməni əmək miqrantlarını qismən geri qaytarmağa kömək edəcək".

Bu fonda erməni mediası Soros Fondunun İrəvandakı şəbəkəsinin Ermənistanı Rusiyadan uzaqlaşdırmaq üçün hərəkətə keçdiyini iddia edib. Beləliklə, yaranan vəziyyət Soros amilinə görə Ermənistanda yeni qarşıdurma yarandığını üzə çıxarır. Belə ki, Rusiya və bir qrup erməni Sorosun Paşinyan üzərində təsirlərinin sona çatmasını istəyir. Amma Paşinyan və komandasında yer alan sorosçular buna aktiv müqavimət göstərir. Elə bu da Ermənistanda yeni qarşıdurma yaradır.

***Nahid SALAYEV***

**Rusiya və Azərbaycan arasında bu gün bütün mühüm istiqamətlər üzrə əlaqələrin dinamik şəkildə inkişaf etməsi özünü qabarıq şəkildə büruzə verməkdədir. Ümumiyyətlə, proseslərin real səviyyəsi Rusiya üçün Azərbaycanın regionda ən əsas tərəfdaş olduğunu deməyə əsas verir.**

# Bakı-Tiflis-Qars Rusiyanın məşhur "Transsibir" dəmir yolu ilə birləşdirilir...




Artıq faktdır ki, Ermənistanda məlum hakimiyyət dəyişikliyindən sonra Moskva İrəvana əvvəlki kimi müttəfiq gözü ilə baxmır. Gürcüstanla da Rusiyanın münasibəti bəllidir. İndiki halda Kreml üçün regionda ən əlverişli tərəfdaş qismində məhz Azərbaycan çıxış edir.

Digər tərəfdən, Rusiya üçün Azərbaycanın iqtisadi potensialı da xüsusilə cəlbedicidir. Bundan əlavə, birgə reallaşdırılan transmilli layihələr də prosesə təsirsiz ötüşmür. Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko da bildirir ki, postsovet məkanında sürətlə inkişaf edən ölkələrdən biri olan Azərbaycanla Rusiyanın münasibətləri çox yüksək səviyyədədir.

O, "Moskva - Baku" portalına müsahibəsində qeyd edir: "Azərbaycan postsovet məkanının ən sürətli inkişaf edən ölkələrindən biridir. Makroiqtisadi sabitliyə nail olunub, yeni iş yerləri açılır. Bütün bunlar ölkədə həyata keçirilən islahatların nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev və komandası ölkənin siyasi, iqtisadi, sosial, mədəni həqiqətlərinə, tələbatlarına uyğun islahatlar hazırlayıb həyata keçirməyi bacarıb". Valentina Matviyenko həmin proseslərin iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq üçün daha da geniş imkanlar açdığını dilə gətirib və Bakıya son səfəri zamanı da sözügedən imkanlardan dolğun şəkildə yararlanmaq məsələlərinin müzakirə olunduğunu qeyd edib: "Ölkələrimizin hökumətləri, işgüzar dairələri tərəfindən daha çox fəallıq, təşəbbüskarlıq göstərilməyin vacibliyi barədə qənaətə gəlmişik. Fikrimcə, müasir texnologiyalar sahəsində əməkdaşlığı da ehtiva edən əlaqələr formatına üz tutmaq həm Rusiyanın, həm də Azərbaycanın marağındadır. Əlbəttə ki, qarşılıqlı sahibkarlıq, sərmayə mühitini də yaxşılaşdırmaq üçün bundan sonra da əzmlə çalışmaq lazım gəlir. İki ölkə arasındakı münasibətlər hazırda çox yüksək səviyyədədir. Hər iki ölkə əlaqələri genişləndirmək, əməkdaşlığın bütün sahələrində qarşılıqlı fəaliyyəti artırmaq üçün ardıcıl səylər göstərir: iqtisadiyyatda da, elmdə də, mədəniyyətdə də. Qarşıya çıxan problemlər də həll olunur. Onlar arasında tərəfdaşlığımıza xələl gətirə bilən məsələnin olmaması əsaslı əhəmiyyət kəsb edir. Bunun üçün ölkələrimizin prezidentləri - Vladimir Putinlə İlham Əliyev arasındakı mütəmadi təmaslara, dost ünsiyyətinə borcluyuq. Hazırkı mərhələdə Azərbaycanla Rusiyanın əməkdaşlığı sıçrayışla yox, ardıcıl şəkildə, tədricən, yüksələn xətlə inkişaf edir. Dövlətlərimizin, vətəndaşlarımızın köklü mənafeyinə uyğun gələn model yaradılıb".

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun aparıcı elmi işçisi Nikolay Silayev isə bildirir ki, Azərbaycanın iqtisadi imkanları Rusiyanın bu ölkə ilə əməkdaşlığını genişləndirməsində xüsusi rol oynayır. O, indiki halda "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərəflərə əməkdaşlıqda yeni mühüm imkanlar yaratdığını da vurğulayır: "Azərbaycanın ərazisindən dəhlizin Rusiya və İranı birləşdirən dəmir yolu hissəsi keçir. Bundan daha vacib olanı isə odur ki, Azərbaycanın ərazisində faktiki olaraq "Şimal-Cənub" dəhlizinin və Türkiyə istiqamətində olan dəmir yolunun birləşməsi baş verir. Bu mənada, Azərbaycanın "Şimal-Cənub" layihəsindəki rolu çox əhəmiyyətlidir. İranla bağlı məlum məsələlər fonunda dəhlizlə bağlı qeyri müəyyənlik var. Lakin dəhlizlə əlaqədar ümumi durumdan asılı olmayaraq, Azərbaycanı Rusiya ilə birləşdirən dəmir yolunun modernizasiyası iki ölkə arasındakı ticarətə böyük impuls verəcək. Elə həm də həmin infrastrukturun inkişafı ilə əlaqədar olaraq ixrac imkanlarının artması nəticəsində son zamanlar Rusiya bazarında Azərbaycan malları xeyli çoxalıb. Azərbaycanın tranzit rolu əhəmiyyətli dərəcədə artacaq. Belə ki, "Rusiya Dəmir Yolları" ASC ilə artıq Bakı-Tiflis-Qars dəhlizindən istifadə ilə bağlı razılaşma var. İstənilən halda, İrandakı dəmir yolu tikilib qurtaracaq. Bu ilin yayından isə kifayət qədər yaxşı yüklənmə ilə Qazaxstanın Aktau limanından Bakıya mütəmadi konteyner reysi açılıb. Yəni Azərbaycan artıq nəqliyyat habına çevrilməkdədir".

Ekspert Rusiyanın Bakı-Tiflis-Qarsa marağının artmasını hər iki ölkə üçün vacib sayır. Bildirir ki, Azərbaycan, Türkiyə və Rusiya arasında dəmir yolu sahəsini əhatə edən üçtərəfli əməkdaşlıq Bakı-Tiflis-Qars dəmir yolunun fəaliyyətində canlanma yaradacaq. Belə ki, əməkdaşlığın yeni forması Rusiyanın şərqindəki dəniz limanlarına daxil olan yüklərin Qafqazdan və Anadoludan keçməklə mənzilbaşına çatmasını təmin edəcək.

Bundan başqa, məlumdur ki, Rusiya Bakı-Tiflis-Qarsın "Transsibir" dəmir yolu xəttilə birləşdirilməsində indi olduqca maraqlıdır. Hesab edilir ki, bu, Avrasiya regionunda malların daşınması və tranziti baxımından çox vacib addımdır. Digər tərəfdən Bakı-Tiflis-Qars xətti Şərqdən Qərbə və əksinə malların tranziti baxımından "Transsibir" yolunun əhəmiyyətini xeyli artırır. Rusiya Dəmir Yolları İdarəsinin baş direktoru Oleq Belozyorov "Transsibir" dəmir yolu xəttilə Çindən Azərbaycana konteyner tranziti üzrə müntəzəm sistemin yaradılmasını, eləcə də Bakıda müvafiq distribütor mərkəzinin yaradılmasını vacib sayır. Xatırladaq ki, artıq Rusiya ilə Azərbaycan arasında Bakı-Tiflis-Qars dəmir yolunun infrastrukturundan istifadə edilərək, "Şimal-Cənub" dəhlizi, eləcə də Rusiya-Azərbaycan-Türkiyə marşrutu üzrə nəqliyyat axınının artırılmasına dair əməkdaşlıq haqqında memorandum imzalanıb. Maraqlıdır ki, Bakı-Tiflis-Qars dəmir yolu bir vaxtlar Çindən malların qəbulu baxımından "Transsibir" dəmir yolu xəttinə ciddi rəqib kimi qiymətləndirilirdi. Lakin bir müddət sonra Rusiya öz məhsullarını Türkiyə bazarına daha tez ixrac etmək, bu ölkənin Aralıq dənizindəki limanlarına çıxış qazanmaq məqsədilə Bakı-Tiflis-Qars xəttindən istifadə etmək qərarına gəldi. İndi isə bu xüsusda əməkdaşlığın daha da genişləndirilməsi Moskvanın xüsusi diqqət mərkəzində yer alır. Hazırda Rusiya Türkiyəyə taxta və polad məhsullarını əsas etibarı ilə məhz Bakı-Tiflis-Qarsla göndərir. Hər ay Rusiyaya məxsus təxminən 70 min ton metallurgiya məhsulu məhz bu yolla Türkiyəyə göndərilir. Ümumiyyətlə, Türkiyə Rusiya üçün ən böyük polad bazarıdır. Bu ölkənin Rusiyadan illik polad idxalının həcmi 5-6 milyon tondur. Bununla yanaşı, Rusiyadan Türkiyəyə hər il milyonlarla ton digər mallar, xüsusilə kömür, taxıl və gübrə ixrac edilir. Bu malların daşınması üçün Rusiya Bakı-Tiflis-Qarsdan getdikcə daha çox istfadə edir. Beləliklə, bu dəmir yolu Rusiyanın Türkiyə və Cənub-Şərqi Avropa bazarlarına çıxışı üçün yeni imkanlar açır. Bütün bunlar fonunda Rusiyanın Azərbaycanla əlaqələrini dərinləşdirməsi də təbii sayılır.

***Tahir TAĞIYEV***

**Ölkədə qida təhlükəsizliyinin təmin edilməsi vacib məsələlərdən biridir. Sözügedən məsələ zaman-zaman müzakirə mövzusu olub. Dəfələrlə sosial şəbəkələrdə hər səhər, təxminən saat 5.00-dan 8.00-a qədər bazarda ölü ətinin kilosunu 1 manatdan satıldığı barədə məlumat yayılıb.**

# Bakıdakı məşhur marketlərdə 5 manata ət - AQTA-nın üzə çıxardığı möcüzə bazar mütəxəssislərini şoka salıb...



***Eyyub Hüseynov:** "Ucuz ətlər qeyri-ənənəvi heyvanlara məxsusdur"*

İddialara görə, restoran və dönərxana sahibləri bu qara nöqtənin əsas müştərilərindəndir.

O da məlumdur ki, bənzər məlumatlar dəfələrlə gündəmdə olub və bu bir sıra məsələlərdən qaynaqlandığı üçün, müəyyən şübhələrə yol açır. Bu gün bazarlarda ətin satış qiyməti 11-12 manata olduğu halda, bəzi market və bazarlarda qiymə ətinin bir kiloqramının 5 manat 50 qəpiyə satıldığı məlum olub.

Paytaxtın Nizami rayonunda mənşəyi məlum olmayan və insan istehlakı üçün yararsız ət aşkar edilib. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) daxil olan məlumat əsasında Bakı şəhəri, Naxçıvanski küçəsində yerləşən 8-ci km bazarında reyd keçirilib. Agentlik və hüquq-mühafizə orqanlarının birgə keçirdikləri reyd zamanı bazarda mənşəyi məlum olmayan və insan istehlakı üçün yararsız ətlərin satışı ilə bağlı məlumat öz təsdiqini tapıb. Məlum olub ki, ümumi çəkisi 226 kiloqram mənşəyi məlum olmayan, sümükdən ayrılmış ət və ət məhsulları tullantılar üçün nəzərdə tutulmuş polietilen torbalarda qablaşdırılaraq Cəlilabad rayon sakini Həsənov Rövşən Yunus oğlu tərəfindən həmin rayondan tədarük edilir.

Araşdırma zamanı bəlli olub ki, orqanoleptik göstəricilərinə görə istehlaka yararsız olan ət və ət məhsulları 15-BP-575 dövlət nömrə qeydiyyat nişanlı, "Mercedes" markalı avtomobil vasitəsilə bazarda fəaliyyət göstərən "Bolluq" marketə gətirilərək satılır.

Eyni zamanda, həmin ünvanda fəaliyyət göstərən "Vüsal" marketə məxsus "Samrac 1001 xırdavat" adı altında pərdələnmiş anbarda Beyləqan rayon sakini Cəfərov Rəvan Faiq oğluna məxsus, mənşəyi məlum olmayan, sümükdən ayrılaraq tullantılar üçün nəzərdə tutulmuş polietilen torbalara qablaşdırılmış orqanoleptik göstəricilərinə görə istehlaka yararsız olan, satış məqsədli, ümumi çəkisi 153 kiloqram ət aşkarlanıb.

Həmin ətlərin qiymə halına salınaraq 5 manat 50 qəpiyə satıldığı müəyyən edilib. Məhsullardan nümunələr götürülərək, laborator analiz üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyasına təqdim edilib.

*"Farş edilmiş ətin qiymətinin nisbətən ucuz olması səbəblərindən biri ətin içərisinə..."*

Qeyd etdiyimiz kimi, bazarda ətin satış qiyməti 11-12 manata olduğu halda, çəkilmiş ətin 5 manata alıcıya təqdim olunması həmin ətin keyfiyyətini şübhəyə salır.

Məsələ ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun da fikirlərini öyrəndik. O, ucuz ətlərin qeyri-ənənəvi heyvanlara məxsus olduğunu bildirdi: "Bir sıra bazarlarda 3-5 manata ət satıldığını görmüşəm. Belə ətlər murdar olmuş heyvan ətləridir. Biz də istəyirik ki, istehlakçı ucuz ət alsın, ancaq bu ət keyfiyyətli olmalıdır. Ümumiyyətlə, belə mallara şübhə ilə yanaşmaq lazımdır. Təəssüf ki, bir çox bazarda bu cür təhlükəli ət satışı həyata keçirilir. Ola bilsin ki, bu, qeyri-ənənəvi heyvanların ətidir. Çox güman ki, at və eşşək ətləridir. Özünüz düşünün, hansı satıcı əti ümumi bazar qiymətindən aşağı satar? Bu, bazar aksiomuna ziddir və təbii ki, şübhə doğurur".

Həmsöhbətimiz onu da əlavə etdi ki, ümumiyyətlə, bu cür məhsullardan az istifadə etmək lazımdır. Onun sözlərinə görə, bəzi yarımfabrikatlarda arzuolunmaz qatqılar olur: "Farş edilmiş ətin qiymətinin nisbətən ucuz olması da bununla bağlıdır. Bu cür ətin içərisinə bəzən heyvanın dili, dərisi, kartof, kartof qabığı və s. qatqılar qatılır. Əti mağazada çəkdirərkən də ehtiyatlı olmaq lazımdır. Çünki ət maşınlarının içərisində köhnə ət qalıqları olur. Maşına təzə ət atılsa da, buradakı köhnə ət də ona qatışır. Ona görə də əti çəkdirərkən alıcı ət atılmazdan əvvəl maşının bir qədər boş işlədilməsini tələb etməlidir".

E.Hüseynovun sözlərinə görə, farşdan hazırlanan düşbərə, kotlet kimi məhsulların içərisində də arzuolunmaz qatqılar olur. Bununla yanaşı o, bu cür məhsulların içərisində keyfiyyətlilərinin, ev şəraitində hazırlananların da olduğunu istisna etmədi.

***Günel CƏLİLOVA***

**Bütün ölkələrdə toy dedikdə ağıla ilk olaraq iki gəncin xoşbəxt gününün sevincini paylaşıb əylənmək gəlir. Azərbaycanda isə toy deyəndə, ilk növbədə, insanların ağlında restoranın bahalığı, hansı müğənnilərin oxuyacağı və yeməklərin ifrat bolluğu məsələsi olur.**

# Restoran toy yeməklərindən kütləvi imtinalar başlayır - lülə, salatlar tam, tikələr əsasən toxunulmaz qalır...



***Tahir Əmiraslanov:** "Şadlıq evlərində ərzağın keyfiyyətinə, kəsilən heyvanın ətinə, tərəvəzlərin və digər ərzaq növlərinin saxlanma şəraitinə fikir vermək lazımdır"*

Azərbaycan toyları ancaq yemək üzərində köklənir. Ayda 300-500 manat maaş alan insanlar toyunda sırf yaxşı, bol yeməklər olsun deyə, hətta külli miqdarda borcun altına da girirlər. Beləliklə, şadlıq evlərində masaya müxtəlif çeşiddə təamlar təqdim olunur. Rəngli salatlar, isti və soyuq ət yeməkləri, kabab çeşidləri şadlıq evlərindəki menyuya daxildir. Ancaq toya dəvət olunan qonaqların əksəriyyəti, demək olar ki, nə rəngli salatlara, nə də tikə, lülə, ikra və digər təamlara əl uzadır. Qonaqlar əsasən meyvə-tərəvəz və ya qovrulmuş çərəzlə qidalanmağa üstünlük verirlər. Bunun da səbəbi şadlıq evlərinin təqdim etdiyi təamların keyfiyyətinin sual altında olması ilə bağlıdır.

Onu da qeyd edək ki, bəzən toylarda sadlıq sarayları tərəfindən təklif edilən menyulardakı yemək çeşidlərinin çoxluğu, eləcə də toy iştirakçılarına köhnə yeməklərin təqdim edilməsi ictimai müzakirələrə səbəb olub.

Masaya təqdim olunan təamların keyfiyyətindən şübhələnən qonaqlar zəhərlənməmək üçün meyvə-tərəvəzlə qidalanmağa üstünlük verirlər.

Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov bildirdi ki, toy məclislərində yeməkləri hazırlayanlar peşəkar mütəxəssis olmalıdırlar: "Yeməkləri hazırlayanların peşəkar və ya qeyri-peşəkar olmasına, gələn ərzağın keyfiyyətinə, kəsilən heyvanın ətinə, tərəvəzlərin və digər ərzaq növlərinin saxlanma şəraitinə fikir vermək lazımdır.

*"Toyxanalarda savadlı aşpazları deyil, küçədən adam tutub işlədirlər"*

Qeyd edilən toylardakı zəhərlənmələrdə də bu faktlar araşdırılmalıdır. Mətbəxdə insanlara kütləvi şəkildə qida hazırlayanlar hamısı təhsilli və sənədli olmalıdır. Qidaların qarışdırılmasından zəhərlənmələr deyil, ağırlaşmalar olur. Toyda bal və yemişi bir yerdə vermirlər ki... Ola bilsin ki, isti havada ət və ya hansısa ərzaq uzun müddət saxlanıb. Yaxud pomidor, göyərti və ya kartof düzgün emal olunmayıb.

**Əslində, biz onu bilmirik, ona görə də ayrı-ayrı ərzağın adını çəkmirik. Kolbasaya gəldikdə, onu çölə atmaq lazımdır. Kolbasa yeməli ərzaq deyil. Təəssüf ki, bütün toylarda kolbasalardan istifadə edilir. Bütün bunlar aşpazların savadsızlığından irəli gəlir. Toyxanalarda savadlı aşpazları deyil, küçədən adam tutub işlədirlər. Onlar da insanları pis günə qoyurlar".**

***Günel CƏLİLOVA***

**"Mən ordakı hadisələrin heç birini unutmamışam. Dünən, srağagün etdiyim söhbətlər yadımdan çıxa bilər, amma Əfqanıstanla bağlı heç nə yaddaşımdan silinə bilməz…Müharibədə insanlar təkcə ölmür, itmir, həm də tapılır."… Bu fikirlər "Əfqanıstan uçurumu" romanı ilə ədəbiyyatsevərlərin rəğbətini qazanmış mərhum yazıçı-jurnalist Zakir Sadatlının müsahibəsindəndir.**

# Əfqanıstandan...Qarabağa

"Sovet ordusunun 15 min itki verdiyi Əfqanıstan müharibəsində 10 mindən çox azərbaycanlı iştirak edib, onlardan 208-i həlak olub, 7 nəfər isə itkin düşüb. Bu gün daxili işlər orqanlarında da Əfqanıstanda xidmət etmiş, müharibənin odunu-alovunu görmüş və torpaqlarımıza erməni təcavüzü başlayanda da ön sıralarda sinəsini qabağa verərək döyüşən polislərimizi, təəssüfflər olsun ki, gənclərimiz tanımır. Onları tanıtmaq üçün özümüz tanımalıyıq".

Polis polkovniki Akif Qorçubəylinin bu fikirlərindən sonra bir daha əmin oldum ki, Vətən, torpaq uğrunda qanını, canını fəda edənlər heç zaman unudulmur. Onları xatırlayanlar hər zaman olub və bundan sonra da olacaq.

Polis polkovniki Elman Kərimov və polis polkovnik-leytenantı Zakir Salamov gəlişimin səbəbini bildiklərindən Əfqanıstanla, Qarabağla bağlı acılı-şirinli xatirələrin boy verdiyi ağlı-qaralı şəkillərə baxıb gözlərini uzaqlara dikmişdilər. Nəyi, kimləri xatırladıqlarını biləməsəm də, ürəklə əlbəyaxa olmağın insana necə əzab verdiyini yurdunu itimiş biri kimi mən də yaxşı bilirəm.

Qaysaq tutmayan yaraları övladları yuxuya gedəndən sonra daha möhkəm sızıldayır, gözlərini yuman kimi Əfqanıstandan Qarabağa gedən yollarda ruhları bu gün də qələbə üçün sızıldayan döyüş yoldaşları onları düşməndən qisas almağa səsləyir.

Elman Kərimov o illəri belə xatırlayır: "Əfqanıstan deyiləndə gözlərimiz önünə dünən Rusiyanın, bu gün isə Qərbin poliqonu olan dövlət gəlir. Bizim hərbi hissəmiz Əfqanıstanda idi və mən tərxis olunmağımdan bir neçə gün əvvəl idmanla bağlı tədbirə qatılmışdım. Gələndə isə mənə hərbi hissəmizin mücahidlər tərəfindən yerlə-yeksan olunduğu, əsgərlərin isə qırıldığı barədə məlumat verdilər. Bəlkə də Allahın mənə yazığı gəlmişdi və mən ordan sağ çıxmışdım…"

O, 1966-cı ildə Gürcüstanda doğulsa da Bakıda böyüyüb boya-başa çatıb. İqtisad Universitetini və Polis Akademiyasını bitirib. Müharibənin ilk günlərindən döyüşün ön sıralarında olub. Onun döyüşdə olduğunu "Bakinskiy raboçi" qəzetində çıxan şəklindən sonra biliblər. Daxili İşlər orqanlarında 1987-ci ildən xidmət edir.

Zabit rütbəsini də döyüşlərdə fərqləndiyinə görə alıb. Şuşanın, Ağdamın, Laçının, Goranboyun müdafiəsində iştirak edib. Murovda 63 gün qarın içində qalıb. "Bu gün adı Azərbaycanın Milli Qəhrəmanı kimi tariximizə düşmüş, Azərbaycanı bütün varlığı ilə sevən, milliyyətcə rus olan Yuri Kovalyovun adını iftixarla çəkirəm. Çünki Çaykəndin alınmasında onun böyük əməyi var. Çaykənd iki dəfə düşməndən azad edilib. Biz ermənilərin içinə məhz həmin oğulların sayəsində girirdik. Çünki rus olduqlarına görə ermənilər həm onlardan qorxur, həm də onları özlərinə xilaskar bilirdilər. Belə bəzi kəşfiyyat məlumatları da əldə edirdik".




1992-ci ildə DİN-ə Baş İctimai Təhlükəsizlik İdarəsinə inspektor təyin olunub, sonra müxtəlif vəzifələrdə çalışıb. 2016-cı ildən BMİ-də Xidmətin Təşkili İdarəsinin rəis müavinidir. 2005-ci ildə "İgidliyə görə" medalı ilə təltif edilib.

Onun da deyiləsi, yazılası daha çox sözü var. Adətən deyirlər ki, şəhər uşaqları ağır şəraitə dözümsüz olurlar. Ancaq bu heç də belə deyil. Polis polkovnik- leytenantı Zakir Salamov Bakıda doğulub, "dünyanın poliqonu" olan Əfqanıstanda ağlasığmaz çətinliklərə dözən, 1988-ci il hadisələrindən sonra Vətənimizin bütövlyü uğrunda yenidən döyüşlərə atılan oğullardandır.

1983-cü ilin aprelini heç vaxt unutmur. Həmin gün hərbi xidmətə yola düşüb. Dəniz vağzalından gəmi ilə Vətəndən ayrılıb. Krasnovodskdan Düşənbəyə, Düşənbədən isə Termes şəhərinə yola düşəndə vəziyyətin nə yerdə olduğunu anlayıb. Çünki o yerlərə Əfqanıstan "havası" daha yaxın idi. Əfqanıstandan gəlmiş kursantların dağlıq ərazilərdə onlara təlim keçmələri qarşıda nələrin olacağından xəbər verirdi. Kundus şəhərində Daşkurqana yola düşüblər və elə ordaca hərbi biletlərini təhvil verib "həyatın və komandirlərin" ixtiyarına veriliblər. İki il altı ay hərbi xidmətdə olub və Palixomruda döyüş maşınının minaya düşməsi nəticəsində ayağından yara alıb.

İndi zarafatla xatırlasa da, diqqət çəkən məqamlardan biri də o idi ki, onları Çexoslovakiyada xidmət adı ilə sonradan Əfqanıstana aparıblar. Türkmənistanda deyiblər ki, sizlər Əfqanıstana gedirsiniz. 1985-ci ildə Vətənə qayıdıb.

Həmkarımız 1988-ci ildə daxili işlər orqanlarına qəbul olunub. İyirmi yanvar faciəsinin canlı şahididir. 1991-ci ildə təhsilini artırmaq üçün N.Rzayev adına Xüsusi Orta Milis Məktəbinə göndərilib. 1993-cü ildə məktəb akademiya statusu alanda təhsilini orda davam etdirib. Kursant olarkən də DİN-in əmri ilə Goranboya ezam olunublar. Döyüş yolu beləcə başlayıb…

Zabit kimi ilk xidmət yeri Xəzər Rayon Mühafizə İdarəsi olub. Səbaildə, Sabunçuda xidmət edib. Hazırda BMİ Xidmətin Təşkili İdarəsinin baş inspektorudur. İki övladı var. Böyük oğlu Polşada, kiçiyi isə Prezident Yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alır.

Torpaqlarımız uğrunda döyüşən oğullar bu Vətənin ən qiymətli sərvətidir. Gəlin, onları qoruyaq, şəhidlik zirvəsinə ucalanları isə hər zaman xatırlayıb yad edək. O zaman yenilməz və qalib olarıq.

***Hafiz TƏMİROV***
***polis mayoru***

**Quba şəhər bələdiyyəsinin sədri vəzifəsini icra etmiş Dəstəbəy Tərlanovun qanunsuz əməlləri barədə rayon sakininin müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

# Bələdiyyə torpağını qanunsuz satan sədr həbs edildi



Baş Prokurorluğun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində D.Tərlanovun xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar kənara çıxmaqla Quba bələdiyyəsinə məxsus 2.5 sot torpaq sahəsini bələdiyyənin perspektiv inkişaf fonduna aid torpaq sahəsi kimi rəsmiləşdirməklə fərdi yaşayış evinin tikintisi məqsədi ilə ayrılmasını təmin etmək üçün rayon sakinin 1750 manat pulunu rüşvət kimi tələb edərək almasına, bundan başqa, vəzifə səlahiyyətlərindən sui-istifadə edərək "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini qəsdən pozaraq tanışlıq münasibətləri olan ayrı-ayrı şəxslərə hərrac və müsabiqə keçirilmədən qanunsuz olaraq bələdiyyəyə məxsus 3090 manat dəyərində 0,06 ha torpaq sahəsini sataraq bələdiyyənin mülkiyyətindən çıxarmasına şübhələr üçün əsaslar müəyyən edildiyindən, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə),309.1 (vəzifə səlahiyyətlərini aşma) və 311.1-ci (rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

D.Tərlanov təqsirləndirilən şəxs qismində cəlb edilərək, ona Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə ittiham elan olunmaqla barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz hallar hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin və həmin şəxslərin qanuni mənafelərini pozmuş olduqları vətəndaşların dairəsinin tam müəyyənləşdirilməsi, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Yeni çəkilmiş Azərbaycan filmləri telekanallarda niyə yayımlanmır?

**Son bir neçə ildir ardıcıl olaraq hər il ölkəmizdə yeni bədii filmlər çəkilir. Həm "Azərbaycanfilm" kinostudiyasının, həm də özəl kino şirkətlərinin istehsal etdikləri müasir bədii filmləri yerli tamaşaçılar görə bilmirlər. Bu da onunla bağlıdır ki, il ərzində bir neçə tammetrajlı və qısametrajlı filmlər isteshal edilsə də, onların nümayişi sahəsində ciddi problemlər mövcuddur.**




***Aydın Kazımzadə:** "Müasir dövrdə çəkilən filmlərin ekranlara çıxması üçün telekanal rəhbərləri və kino istehsalçıları birgə səy göstərməli, hər bir tərəf öz üzərinə düşəni etməlidir"*

***Hüseyn Mehdiyev:** "Televiziyalar yayımladıqları hər bir filmin 1 saatına görə 125 manat ödəməlidirlər"*

Yeni çəkilən filmlərimiz nə kinoteatrlarda, nə də telekanallarda nümayiş olunur. Kinoteatrlar, ümumiyyətlə, milli kino təqdim etmir, televiziyalar isə yalnız Sovet dövründə çəkilən bədii filmləri nümayiş etdirməklə kifayətlənirlər. Yeni filmlərin adlarını isə tamaşaçılar yalnız məlumat xarakterli yazılardan eşidirlər. Azərbaycan kinosuna tamaşaçı cəlb etməyin ən optimal yolu onun nümayişini və təbliğatını mütəşəkkil təşkil etməkdir. Amma, gördüyümüz kimi, bu proses həyata keçirilmir.

Azərbaycan tamaşaçısının görmədiyi yeni çəkilən filmlərin xarici ölkələrdə keçirilən müxtəlif kinofestivallarda təqdim edilməsi halları olsa da, o filmlərin dünya bazarında meydanı dardır.

Ekspertlər bildirirlər ki, müasir Azərbaycan filmlərinin telekanallarda nümayiş etdirilməməsinin əsas səbəbi odur ki, aidiyyəti kino qurumları nümayiş üçün telekanalın vəsait ödəməsini tələb edirlər. Ekspertlər qeyd edirlər ki, Azərbaycan filmlərini nümayiş etdirən bir çox telekanal müəlliflərə və hüquqi varislərə qonorar ödəmədiyinə görə hətta məhkəməyə də çəkiliblər. Özəl kanallar filmləri nümayiş etdirdikdən sonra qonorar ödəməkdən imtina edir, əslində, onlar nümayişə görə qonorar ödəməlidirlər.

Kinoşünas Aydın Kazımzadə hesab edir ki, televiziyalar "Azərbaycanfilm" kinostudiyası və digər kino şirkətləri ilə müqavilə bağlamalı və həmin müqaviləyə əsasən filmlərin nümayişini həyata keçirməlidirlər. Televiziyaların bir çoxunun cüzi məbləğdə qonorar ödəməkdən imtina etdiyini deyən A.Kazımzadənin sözlərinə görə, "Azərbaycanfilm"də dövlət hesabına azı 2-3, bəzən 4 bədii film çəkilir və bu filmlərin istehsalına lazımi vəsait ayrılır. "Bu gün Azərbaycan filmlərinin təbliği üçün daha çox şərait var. Hesab edirəm ki, telekanallar yeni filmləri nümayiş etdirməlidirlər. Hansı telekanala baxırsan, hamısı köhnə filmlər təqdim edir. Bizim son illər çəkilən filmləri isə ekranlarda görmək olmur. Bildiyim qədər, televiziyalar yeni filmlərin nümayişi üçün kinonu istehsal edən şirkətə qonorar ödəməlidirlər. Əlbəttə, bu, müasir dövrün tələbidir. Müasir Azərbaycan filmlərinin telekanallarda nümayiş etdirilməsi sahəsindəki problemlərin aradan qaldırılması vacibdir. Müasir dövrdə çəkilən filmlərin ekranlara çıxması üçün telekanal rəhbərləri və kino istehsalçıları birgə səy göstərməli, hər bir tərəf öz üzərinə düşəni etməlidir" - deyə A.Kazımzadə qeyd etdi.

Azərbaycan Professional Kinorejissorlar Gildiyasının sədri, Əməkdar incəsənət xadimi Hüseyn Mehdiyevin fikrincə isə hər bir müəllifin qanunla tənzimlənən hüququ var və bir sıra hallarda bu hüququ tanımaq istəmirlər: "Qanunla hər bir istifadəçi audiovizual əsərlər, o cümlədən, filmlərin istifadəsindən qabaq həmin əsərin hüquqi sahibindən lisenziya almalıdır. Bu qanun həm musiqiyə, həm ədəbiyyata, həm də teatra aiddir. Yeni filmlərin istehsalçısı "Azərbaycanfilm" kinostudiyasıdır. Demək olar ki, bütün kanallar həmin qurumla müqavilə bağlayıblar. Niyə filmlər az nümayiş olunur və ya olunmur, bu onların daxili siyasətidir. Biz onlara bu yöndə məsləhət verə bilmərik. Artıq 20 ildən çoxdur münasibətlər qayda-qanunla tənzimlənir. Qanunu pozan tərəflər isə münasibətlərini məhkəmə vasitəsilə tənzimləyirlər".

Bütün filmlərin müəlliflərinin hüquqlarının qorunduğunu deyən H.Mehdiyev qeyd etdi ki, yayımlanan hər bir filmin 1 saatına görə televiziyalar qanuna əsasən 125 manat ödəniş etməlidirlər. "Televiziyalar yayımladıqları hər bir filmin 1 saatına görə 125 manat ödəməlidirlər, bu, qanunla belədir, burada qanundankənar heç nə yoxdur. Deyim ki, digər dövlətlərlə müqayisədə bu, çox cüzi məbləğdir. Kino sənayesinin kinoteatrlardan sonrakı bazarı məhz televiziyalardır. Xaricdə yeni bir filmin nümayişi üçün hətta milyonlar da ödəyirlər" - deyə H.Mehdiyev bildirdi.

***İradə SARIYEVA***

# Amerikada bayrağımızı dalğalandıran məktəbli-istedad...

**Üz-gözündən mələklik tökülən bu qızcığaz Bakıda doğulub. Və doğulduğu bu şəhərin, eləcə də bütöv Azərbaycanın adını dünyada tanıtmaq, bu ünvanları öz uğurlarıyla şərəfləndirmək missiyasını özünün kövrək çiyinlərinə götürüb.**



Sona Vüsal qızı Mirzəyeva 2007-ci ilin yanvar ayının 9-da doğulub. Sovet dönəmi olsaydı, 9 yanvar tarixini kimsə aparıb inqilabla, üsyanla bağlayardı. Amma mən Sona Vüsal qızının qazandığı uğurlara istinad edərək, hardasa "9 yanvar" tarixini onun uğurlarına bir təkan kimi görürəm. Çünki bu qızcığazın içindəki odalov, oxuyub-öyrənmək, nümunə olmaq istəyi sonsuzdu. Elə bu səbəbdəndir ki, lap kiçik yaşlarında təhsil aldığı Bakı Oksford məktəbində pedaqoji kollektivin, sinif yoldaşlarının sevimlisinə çevrilib. İbtidai siniflərdə oxuduğu vaxtlarda o, məktəbdə və paytaxtımızda keçirilən riyaziyyat, eləcə də təbiət elmləri üzrə olimpiadalarda uğurla çıxış edib və fəxri fərmanlar, sertifikatlar qazanıb. Sona Vüsal qızının adına yazılmış "Ümummilli lider Heydər Əliyevin 96-cı ildönümünə həsr edilmiş" inşa müsabiqəsində, "Azərbaycan - Yurdum mənim" müsabiqəsində, həmçinin bir çox ingilis təmayüllü məktəblərin texniki fənlər üzrə bilik yarışmalarında qalib yerlərin diplomları, hədiyyələri var. 7-ci sinif şagirdi olan bu qızcığaz rəssamlığa da böyük maraq göstərir. Onun çəkdiyi şəkillər "Saf rənglər" Beynəlxalq Rəsm Yaradıcılıq Festivalında diploma layiq görülüb. Çox qəribədir ki, Sona piano arxasında əyləşəndə də hamının diqqətini özünə çəkə bilir. Musiqi təhsili alan Sona ifa etdiyi mahnılarla hər kəsin könlünü oxşayır. Ona görə də onun uğurları, coğrafiyası get-gedə böyüyür, genişlənir.






Bu günlərdə Sona beynəlxalq miqyaslı bilik yarışmasında Azərbaycanı uğurla təmsil edib. Belə ki, 82 ölkənin iştirakçısı olduğu "Wold Scholars Cup" (dünya alimlər kuboku) bilik yarışmasında ilk turda 9 medal qazanan Sona iyul ayının 21-26-da Niderlandın Haqa şəhərində keçirilən 2-ci tura qatılmışdı. Burada da o, medal qazanaraq Çempionlar turnirinə vəsiqə əldə etmişdi. 1000 nəfərdən artıq şagird arasında keçirilən həmin Çempionlar turnuru noyabr ayının 8-13-də ABŞ-ın Konnektikut şəhərində keçirilib. 1701-ci ildə bünövrəsi qoyulmuş və ABŞ-ın sayca ən qədim 3-cü universiteti olan Yale Universitetində həmin müsabiqə böyük uğurla başa çatıb. Sona Mirzəyeva bu yarışmada çox parlaq nəticə göstərərək Amerikadan Da Vinç mükafatıyla qayıdıb. Eyni zamanda o, Azərbaycanı bu yarışmada uğurla təmsil edərək ölkəmizə növbəti qələbənin medalını də gətirib.

Uğurların bol olsun, Sona Vüsalqızı! Sən Azərbaycanın gələcəkdə şöhrətli alimlərindən biri olacağına bizi artıq inandırmısan!

***Əbülfət MƏDƏTOĞLU***

№ 208 (4106) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

22 NOYABR 2019-cu il

www.baki-xeber.com

## Marsda həyat üçün vacib daha bir element aşkar edildi

**Mars planetində mümkün bioloji aktivlik barəsində ilk məlumatlardan sonra NASA Agentliyi Mars səthində fəaliyyət göstərən "Curiosity" aparatının yeni kəşfindən danışıb.**



Belə ki, bu dəfə aparat həyatın təmin olunması üçün vacib olan daha bir elementi aşkar edib. Məlum olub ki, Mars atmosferində fəsil üzrə oksigen miqdarı hətta Yer kürəsinin atmosferində olan oksigen miqdarından daha çoxdur. "Technote.az" bildirir ki, alimlərə çoxdan bəri məlumdur ki, Marsın atmosferi 95% karbon qazından, 2.6% azotdan, 1.9% arqondan, 0.06% karbon monoksitdən və 0.16% oksigendən ibarətdir. "Curiosity" aparatının hesablamalarına əsasən qırmızı planetin atmosferində oksigenin miqdarı 30%-ə çata bilir. Müqayisə üçün qeyd etmək lazımdır ki, Yer kürəsinin atmosferində oksigenin miqdarı ortalama 20.94% təşkil edir. Marsın atmosferində qazların miqdarlarının bu cür dəyişilməsi alimlər tərəfindən öncə bilinsə də, bu cür ani dəyişiklik bilinən ümumi elmi modellər ilə uyğunlaşmır. Yer kürəsində olduğu kimi Marsda da fəsil üzrə iqlim dəyişiklikləri olur. Qışda karbon qazı planetin qütblərində qar formasına kimi donaraq atmosfer təzyiqini aşağı salır. Yayda isə karbon qazı yenidən buxarlanır. Alimlər daha öncədən də Marsın atmosferində qazların miqdarlarının dəyişilməsini hesablamışdılar. Lakin onların hesablamaları yalnız azot ilə arqon üçün düzgün olub. Maraqlısı ondadır ki, Marsın atmosferindəki oksigen miqdarının dəyişilmə zamanı metan miqdarının dəyişilmə zamanı ilə üst-üstə düşür. Bu iki hadisə bir-biri ilə əlaqəli ola bilər. İlkin fərziyyəyə əsasən sözügedən dəyişiklik bioloji aktivlik ilə əlaqəli ola bilər. Qeyd etmək lazımdır ki, indiyənə kimi Marsda həyatın mövcud olması ilə bağlı tam dəqiq bir sübut aşkar edilməyib. "Curiosity" isə qazların mənbələrinin təyin olunması üçün lazımi təchizata sahib deyil. NASA-nın daha təkmilləşdirilmiş Mars aparatı isə qırmızı planetə gələn il göndəriləcək.

## Elan

Xəzər rayonu, Türkan qəsəbəsində Xudayarov Pərviz Balaşirin oğlunun adına verilmiş 11150365 qeydiyyat nömrəli 01 saylı bağ sahəsinə aid çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Çayqaraqoyunlu kənd sakini Mahmudova Ceyran Hünbət qızının adına verilmiş JN-0244 seriyalı torpağa mülkiyyət hüququna dair dövlət aktı (JN- 0244 seriyalı) itdiyindən etibarsız hesab edilir.

Mehdizadə Elnur Kərəm oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Tağızadə Şamil Kamil oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Nəsibə Soltan qızının adına, Bakı şəhəri, Səbail rayonu, E.Əzizov küçəsi, ev 24, mənzil 10 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cavadzadə Şəhla Elxan qızının adına məxsus, Yasamal rayonu, H.Məcidov küçəsi, ev 5 V, mənzil 9 ünvanının çıxarışı itdiyi üçün etibarsız sayılır.

Bayramov Aydın Nadir oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, Tramvay döngəsi 10, mənzil 5 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Görmə məhdudiyyətli insanlar üçün "Nar"ın "Canlı kitab" layihəsi davam edir

**Fiziki məhdudiyyətli şəxslərə dəstək məqsədilə "Nar"ın növbəti - "Canlı kitab" layihəsi "Radio Antenn" 101 FM-in efirində artıq ikinci aydır davam edir.**

"Canlı kitab" layihəsində klassik və müasir Azərbaycan ədəbiyyatının, eyni zamanda, dünya klassiklərinin Azərbaycan dilinə tərcümə olunmuş əsərləri audio-kitablar şəklində yazılır. Görmə məhdudiyyəti olan insanların dünyasına işıq salmaq məqsədilə həyata keçirilən layihə ilə səsli ədəbiyyat kitabxanası yaradılacaq. İndiyədək C.London, G.De Mopassan, H.Murakami, A.Çexov, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, İ.Məlikzadə, K.Abdullanın əsərləri canlı səsləndirilib.

Qeyd edək ki, ötən aydan başlayaraq "Radio Antenn" 101 FM-in canlı efirində Azərbaycan və dünya ədəbiyyatının seçmə nümunələri tanınmış aktyorlar, qiraət ustaları tərəfindən səsləndirilir. Layihə başa çatdıqdan sonra bütün səs yazılarının flaşkardlar şəklində kitab oxumaqda çətinlik çəkən şəxslərə paylanması nəzərdə tutulur. Layihənin əsas məqsədi bədii ədəbiyyatı görmə məhdudiyyətli insanlar üçün əlçatan etmək, insanların ədəbiyyata marağının artmasına dəstək olmaqdır.

Qeyd edək ki, proqramı həftəiçi beş gün saat 10:00-dan 12:00-dək "Radio Antenn" 101 FM-in yayımında dinləyə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə əhalisinin 97,7%-ni əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Dünyanın ən az inkişaf etmiş 47 ölkəsi...

**BMT dünyanın ən az inkişaf etmiş 47 ölkəsinin siyahısını təqdim edib.**



"Trend" bildirir ki, siyahı Ticarət və İnkişaf üzrə BMT-nin Konfransının ən az inkişaf etmiş ölkələri üzrə hesabatında yer alıb. Siyahıda, əsasən Afrika ölkələri, o cümlədən Anqola, Benin, Burkina-Faso, Burundi, Mərkəzi Afrika Respublikası, Çad, Konqo Demokratik Respublikası, Cibuti, Eritreya, Efiopiya, Qambiya, Madaqaskar, Mali, Sudan, Cənubi Sudan, Uqanda, Zambiya yer alıblar. Siyahıya, həmçinin Okeaniya dövlətləri - Kiribati, Tuvalu, Vanuatu, Solomon Adaları da daxil ediliblər. Asiya ölkələrindən siyahıda Əfqanıstan, Banqladeş, Kamboca, Laos, Myanma, Nepal, Yəmən və Butan yer alıblar.





**Qoç** - Gün sizə yorucu görünür, ancaq səyləriniz hədər getməyəcək, əldə etdiyiniz nəticələr sevindirəcək. Ətrafınızdakılarla asan dil tapır, onların hərəkətlərinin əsl məramını və gizli fikirlərini vaxtında anlayırsınız.



**Buğa** - İşgüzar əməkdaşlığa başlamaq üçün yaxşı gündür. İnsanları sizin üçün faydalı olan əməllərə asanlıqla yönəldirsiniz. Uzunmüddətli əməkdaşlıq barədə müqavilələr imzalaya bilərsiniz.



**Əkizlər** - Ehtiyatlı olmasanız da, uğurlarınız çoxdur. Ciddi problemlərdən yan keçəcəksiniz. Ancaq bir qədər diqqətli olmağınız məsləhətlidir. Yerinə yetirə bilməyəcəyiniz vədlər verə, yaxud əl-ayağınızı bağlayacaq müqavilə bağlaya bilərsiniz.



**Xərçəng** - Bu günün hadisələri çoxdan qarşınıza qoyduğunuz məqsədlərə doğru bir pillələn olacaq. Ancaq ona bu qədər yaxın olmağınız sizi o qədər də sevindirmir: son dövr ərzində prioritetləriniz dəyişib və indi sizə tamamilə başqa şeylər lazımdır.



**Şir** - İnad, məqsədyönlülük və güclü iradə sayəsində ən mürəkkəb məsələlərin öhdəsindən gələ biləcəksiniz. İşgüzar danışıqlar, maliyyə məsələlərinin müzakirəsi və həlli üçün münasib gündür.



**Qız** - Vergi, sığorta, kreditlə məşğul olan idarələrin işçilərinin bəxti bu gün yaman gətirəcək. Mürəkkəb hesablamalar aparmaq, biznes-plan hazırlamaq olar. Yaranan imkandan istifadə edərək sizin üçün dəyərli olan adamlarla münasibətlərinizi düzəldin.



**Tərəzi** - Çox uğurlu gündür, sizin üçün gözəl imkanlar yaranır. İntuisiyanız güclüdür, onu dinləyərək səhvlərdən qaçırsınız. Xoşbəxtlikdən, bunları vaxtında sezib aradan qaldıra biləcəksiniz.



**Əqrəb** - Ünsiyyət üçün xoş gündür. Başqalarının istəklərinə qarşı diqqətlisiniz, onların arzularını və ehtiyaclarını nəzərə alırsınız. Nüfuzlu bir şəxsdə özünüz haqda xoş təəssürat yarada biləcəksiniz.



**Oxatan** - Strateji məsələlərin həlli və uzunmüddətli planlaşdırma üçün münasib gündür. İntellektual potensialınız çox yüksəkdir, istənilən mürəkkəb situasiyadan çıxış yolu tapmağa qadirsiniz.



**Oğlaq** - Düşünülməmiş hərəkətlər etməyə meyllisiniz. Bu, sizə lazımdırmı? Düşünsəniz, pis olmaz. Nəzakətli davrananları, vaxtında kölgəyə çəkilməyi, yeri gələndə manipulyasiyalara keçməyi bacaranları uğur gözləyir.



**Dolça** - Çox enerjilisiniz, bir yerdə dayanmaq bilmirsiniz. Hansısa yeni bir işə başlamazdan əvvəl onu yaxşıca götür-qoy edin. Emosiyaların təsiri altında hərəkət edir, bununla vurnuxma, gərəksiz qaygılar yaradırsınız.



**Balıqlar** - Müxtəlif xarakterli məlumatlar alırsınız. Fəaliyyətə keçməyə tələsməyin: informasiyanı dəqiqləşdirmək, analiz etmək üçün zamana ehtiyacınız var. İşi kütlə qarşısında çıxışlar, reklam tədbirləri, səfərlərlə bağlı olan Balıqlar üçün çox uğurlu gündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Robot balıq ixtira edildi

**Massaçusets Texnologiya İnstitutunun (MIT) kompüter elmləri və süni intellekt laboratoriyasının (CSAIL) mütəxəssisləri suyun altında səssizcə qalan robot balıq təqdim ediblər.**

"İctnews.az" bildirir ki, "SoFi" adlı balıq 15 metr dərinlikdə 40 dəqiqə ərzində üzə bilir. Onun quyruğu iki hidravlik nasos vasitəsilə hərəkət edir. Həmçinin quyruğu sukeçirməz pultun köməyi ilə idarə etmək mümkündür. Robot balığın hərəkət istiqaməti yüksək təsvir ölçülü videokamera tərəfindən qeydə alınır. O, quraşdırılmış qavrama sensorları, mühərrik və smartfonlarda olduğu kimi litium batareya ilə təchiz edilib. Canlı balıqların onun robot olduğunu "duymayacağına" əmin olan alimlərin fikrincə, "SoFi" mövcud sualtı aparatlarla müqayisədə dəniz canlılarını daha yaxşı öyrənməyə imkan verəcək. Hazırda ixtioloqlar tərəfindən bu məqsədlər üçün qayığa burazla birləşdirilən avtonom aparatlardan istifadə olunur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.